HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 70 (3394) Cümə axşamı / 29 iyul - 4 avqust 2021-ci il Qiymәti 40 qәpik

MÜSAHİB

## Şeyxülislamdan belə bir açıqlama gözləmirdim



Cümşüd Nuriyev,
siyasi elmlər doktoru, politoloq

*Siyasi elmlər doktoru, politoloq Cümşüd Nuriyevlə hafta.az üçün növbəti söhbətimizdə son dövrdə gündəmdə olan əsas mövzulardan - Azərbaycan, Türkiyə və Pakistanın parlament rəhbərləri səviyyəsində imzalanmış Bakı Bəyannaməsinin siyasi və iqtisadi əhəmiyyətindən, Şuşa ziyarəti zamanı "Ayətullah Xamneyinin "Qarabağ torpağı İslam torpağıdır", - deyərək fətva verməsi qələbənin carçısı idi və bizi qələbəyə apardı" deyən Şeyxülislam Allahşükür Paşazadəyə qarşı ittihamlardan, ABŞ-ın Ermənistandakı səfirinin yenə Kəlbəcər istiqamətində Azərbaycanla sərhədə gələrək Minsk qrupu çərçivəsində danışıqları bərpa etməyə çağırmasından və s. danışdıq.*

*Bakı Bəyannaməsi yeni türk-müsəlman ittifaqının əsasını qoyacaq*

▸▸ Səh. 3

# Kəlbəcər təxribatı

***Ermənistan tərəfi regionda Rusiyanın təşəbbüsü ilə əldə olunan atəşkəs rejiminin tələblərinə əməl etmir. Azərbaycan sərhədləri Ermənistan tank və 120 millimetrlik minaatanlarından atılan atəşlə pozulur. Kəlbəcər rayonu ərazisində iki hərbçimizin yaralanması vəziyyətin heç də sabit olmadığını göstərir. Günlərdir sərhəddə atəşkəsi pozan Ermənistan silahlı qüvvələrinin bölmələri Ermənistan-Azərbaycan dövlət sərhədinin Kəlbəcər rayonu sahəsində təxribat törətməyə davam edir.***

***Azərbaycan Müdafiə Nazirliyinin məlumatına görə, dünən saat 00:50 radələrindən başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonu ərazisindəki müxtəlif istiqamətlərdə yerləşən döyüş mövqelərindən Azərbaycan Ordusunun Kəlbəcər rayonu ərazisindəki mövqelərini atıcı silahlar və qumbaraatanlardan növbəti dəfə intensiv atəşə tutub. Qarşı tərəfdən açılan atəş nəticəsində iki hərbi qulluqçumuz - Əliyev Sadiq Nizami oğlu və İmranlı İmran Dilqəm oğlu yaralanıb.***

***Yaralılara ilkin tibbi yardım göstərilib, onların həyatları üçün təhlükə yoxdur. Azərbaycan Ordusunun bu istiqamətdə yerləşən bölmələri tərəfindən adekvat cavab tədbirləri nəticəsində Ermənistan ordusunun 3 hərbçisi məhv edilib. Ermənistan Müdafiə Nazirliyi açıqlamasında cəbhədə intensiv döyüşlərin getdiyini, üç erməni hərbçinin öldüyünü, 4-nün isə yaralandığını açıqlayıb. Daha sonra Azərbaycan Müdafiə Nazirliyi açıqlama yayaraq Ermənistan-Azərbaycan dövlət sərhədində Bakı vaxtı ilə saat 10:00-dan etibarən atəşkəsin elan olunması ilə bağlı Rusiya tərəfinin təşəbbüsünün tərəfimizdən qəbul edildiyini bəyan edib.***



## Erməniləri təhrik edən kimlərdir

### XİN-dən bəyanat

*"Azərbaycan Müdafiə Nazirliyinin məlumatına görə, Azərbaycan Ordusunun mövqeləri Ermənistan-Azərbaycan sərhədinin Kəlbəcər rayonu hissəsində yenidən atəşə məruz qalıb".*

*Bunu Xarici İşlər Nazirliyinin Mətbuat Xidmətinin rəisi Leyla Abdullayeva öz tviter hesabında yazıb. "İki hərbçimiz yaralanıb. İki dövlətin sərhədində gərginliyin artırılması ilə bağlı məsuliyyət tam olaraq Ermənistanın üzərinə düşür", - deyə L. Abdullayeva qeyd edib.*

*"Biz Ermənistanı yeni region reallıqlarını qəbul etməyə, hərbi təxribatlara son qoymağa və sərhədin delimitasiyası ilə bağlı danışıqlara başlamağa çağırırıq. Azərbaycan öz ərazi bütövlüyünü qorumaq hüququnu özündə saxlayır. Ölkəmizin ərazi bütövlüyünə qarşı istənilən addım qətiyyətlə cavablandırılacaq", - deyə XİN rəsmisi əlavə edib.*

Bəs regionda sülhün qorunması ilə bağlı təminatı üzərinə götürən dövlətlər, beynəlxalq təşkilatlar niyə susur və baş verən atəşkəs pozulması halları prosesi hara aparır?

■ **Vəziyyəti hafta.az-a şərh edən politoloq Qabil Hüseynli bildirir ki, Ermənistanı müharibəyə təhrik edən qızışdırıcı qruplar, artıq "Qarabağ klanı" çərçivəsindən kənara çıxıb. O, hesab edir ki, ermənilərin Kəlbəcərdə və digər sərhəd rayonlarımızda atəşkəsi pozaraq hərbçilərimizin yaralanması, şəhid olması ilə müşahidə olunan hadisələr regionda sabitliyin pozulmasına, gərginləşməsinə yönəlik hərəkətlərdir ki, bunun da bir ucu xarici dövlətlərə gedib çıxır.**

"Xüsusilə Fransa erməniləri regionda sabitliyin pozulmasında, sərhədlərdə atışmaların intensivləşməsində ruhlandırıcı rol oynayır. Fransa Avropa İttifaqında Ermənistana 2,6 milyard avronun ayrılması təşəbbüskarlarından biri olub. Avropa İttifaqı Şurasının sədri Mişel cənabları da Fransanı təmsil edir. Ümumiyyətlə, bu saat fransızlar Avropada ermənilərin böyük dayağına çevriliblər və bundan ruhlanaraq həm ordunun ruhunu qaldırmaq, həm də Azərbaycana müəyyən təzyiqlər göstərmək üçün belə sərhəd toqquşmalarını təşkil edirlər. Yəni ermənilər bu cür hərbi quldurluqla "biz varıq, döyüşməyə hazırıq" kimi çağırışlar edirlər. Amma onlar çox ciddi surətdə yanılırlar və bilirlər ki, yeni toqquşmalar artıq ermənilərin sıradan çıxarılmasına və hətta dövlətçiliklərinin də təhlükə altına düşməsinə gətirib çıxaracaq. Azərbaycan hələ ki, ermənilərin bu həyasızlığına dözümlü yanaşır".

Politoloq bildirir ki, Azərbaycan regionda sülhün bərpası istiqamətində apardığı siyasətə sadiqdir, lakin ermənilərin bu cür hərbi təxribatlarının qarşısını yetərli cavab reaksiyası ilə susdurur. Onun sözlərinə görə, Azərbaycan Ordusu Kəlbəcərdə baş verən son atəşkəsin pozulması nəticəsində iki nəfər hərbçimizin yaralanmasına görə də öz layiqli cavabını verib. Politoloq hesab edir ki, əgər məsələ regionda sülhün təmin edilməsidirsə, Azərbaycan tərəfi daha çox bu ideyanın üzərində dayanır və hələ ki, Ermənistanın hərbi müdaxilələrini sadəcə cavab atəşi ilə susdurur.

"Azərbayacan tərəfi ermənilərin hərbi müdaxiləsinə sarsıdıcı zərbə vurub. Bəzi mənbələrə görə sərhəddə atəşi pozan 11 erməni hərbçidən 4-ü xaricdən gətirilən müzdlu olub. Ermənilərin özlərinin etirafına görə, 3 nəfər həlak olub. Yəni iki hərbçimizin yaralanmasının əvəzində biz onlardan amansız intiqam aldıq. Yəni separatçı ermənilərin cavabı verilir və atəşkəsin pozulduğu nöqtələr susdurulur. Eyni zamanda, Azərbaycan ciddi surətdə antiterror əməliyyatlarına hazırlaşır".

Politoloq Ermənistan sərhədindən Azərbaycan sərhədçilərinin atəşə tutulması hadisələrində Rusiya sülhməramlılarının hansısa təsirə malik olmadığını bildirib. Onun sözlərinə görə, sülhməramlılar Azərbaycan ərazisində sülhün qorunması missiyasını həyata keçirməlidir.



**Polad Bülbüloğlu,**
Azərbaycanın Rusiyadakı səfiri

**"Bakı Yerevanı sülh razılaşması imzalamağa və sərhədin delimitasiyası ilə bağlı məsələyə konstruktiv yanaşmağa çağırır". Bunu Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu "RİA Novosti"-yə müsahibəsində deyib. "Biz öz tərəfimizdən dəfələrlə bəyan etmişik ki, müharibə artıq bitib, münaqişə keçmişdə qalıb, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımalı, sülh razılaşması imzalamalı və sərhədlərin delimitasiyası məsələsinə konstruktiv yanaşmalıdır", - deyə səfir Bülbüloğlu bildirib.**

Onun sözlərinə görə, Yerevan Bakı ilə münasibətlərin tənzimlənməsini təxirə salır: "Ermənistan tərəfi yenidən dövlətlərarası münasibətlərin tənzimlənməsi prosesini təxirə salmağa çalışır və bununla da bütün regionun hərtərəfli inkişafı üçün yeni şərtlərin yaranmasına mane olur".

Qarabağdakı Rusiya sülhməramlı kontingentinin qalma müddətinin uzadılması ilə bağlı suala cavab verən azərbaycanlı səfir: "Bu gün bu barədə danışmaq hələ tezdir", - deyə vurğulayıb. "Azərbaycan Respublikası ərazisində müvəqqəti olaraq yerləşən Rusiya Federasiyasının sülhməramlı kontingenti ona həvalə edilmiş hərbi və humanitar vəzifələri yerinə yetirməyə davam edir. Dövlət başçıları tərəfindən təyin edilmiş vəzifələri yerinə yetirmək üçün hər cür səy göstərməliyik", - P.Bülbüloğlu əlavə edib.

▸▸ Səh. 2

MÜSAHİB



**Teymur Qasımlı,**
beynəlxalq münasibətlər üzrə analitik

■ Kreml bu gərginlikdən yararlanaraq, Ermənistanın Kəlbəcərdən Laçınadək sərhədinin mühafizəsini öz əlinə keçirmək istəyir...

■ ABŞ yaxşı bilir ki, Rusiya onun Mərkəzi Asiyaya çıxışı olan Zəngəzur dəhlizinin açılmasını istəmir...

■ Rusiya Azərbaycan-Ermənistan sərhədində gərginlik olmasında maraqlıdır...

▸▸ Səh. 3

GÜNÜN FOTOSU...



**Fransa Prezidenti Emmanuel Makron Fransa Polineziyasına səfərində çiçəklərlə bəzədilib...**

GÜNÜN SİTATI

*"Ermənistanın Naxçıvana və Azərbaycanın digər sərhəd bölgələrinə etdiyi hücumlar bu ölkənin bölgə müharibəsi başlatmaq potensialı olduğunu və risk faktoru olduğunu göstərdi"*



**Mustafa Şentop,**
Türkiyə Böyük Millət Məclisinin sədri

KARİKATURA



**Sərhəddəki erməni təxribatlarının "qara qutu"su...**

## Xalq küçələrə axışıb, Prezidentin qərarını alqışladı

**Sana Kliç Oydi**
"TAP Xəbər" Agentliyinin əməkdaşı xanım

Məhz bu siyasi fikir ayrılıqları üzündən Tunisdə aylardır davam edən siyasi böhran dövlət qurumlarının işinin pozulmasına gətirib çıxardı.

▸▸ Səh. 2

STATİSTİKA



■ **Azərbaycanda sosial ödənişlər son üç ildə 60 faizdən çox artıb. Bu barədə hafta.az-a İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzindən bildirilib.**

Məlumata görə, son üç ildə Azərbaycanda minimum pensiya - 82 faiz, orta pensiya - 60 faiz, orta müavinat - 100 faiz və ünvanlı sosial yardım - 72 faiz artıb. Hazırda yaşayış minimumu 196 manat olduğu halda, orta pensiya 360 manat və minimal əmək haqqı 250 manat təşkil etməklə yaşayış minimumunu üstələyir.



▸▸ Səh. 5

# Meyvə bazarı

**Azərbaycan meyvəni daha çox hansı ölkələrdən alır?**

## PREZİDENTİN İŞ GÜNÜ



**Prezident İlham Əliyev Kəlbəcər və Laçın rayonları ərazisində yol infrastrukturunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncama əsasən, Kəlbəcər və Laçın rayonları ərazisində yol infrastrukturunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitdən Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ilkin olaraq 10.000.000,0 (on milyon) manat ayrılıb.

***

**Prezident İlham Əliyev Azərbaycanın Əfqanıstanda fövqəladə və səlahiyyətli səfirinin vəzifəsindən geri çağırılması haqqında sərəncam imzalayıb.**

Sərəncama əsasən, Həsən Zeynalov Azərbaycanın Əfqanıstanda fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılıb. Dövlət başçısının digər sərəncamı ilə İlham Məmmədov Azərbaycanın Əfqanıstanda fövqəladə və səlahiyyətli səfiri təyin edilib.

# Kəlbəcər təxribatı

◂ əvvəli 1-ci səhifədə

"Ermənilər Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının qüvvələrini prosesə cəlb etmək, Azərbaycanı Rusiya ilə toqquşdurmaq üçün vəziyyəti gərginləşdirmək istəyirlər, amma bu alınmayacaq. Rusiyanın özü də hadisələrdə kimin təşəbbüskar olduğunu, kimin aranı qızışdırdığını çox yaxşı bilir". Q.Hüseynli bildirir ki, ermənilər sərhəddə atəşkəsi pozmaqla, həm də ATƏT-in Minsk qrupunun yenidən aktivləşdirilməsinə çalışır.

"ATƏT-in yenidən vasitəçilik etməsi ermənilərin tələbidir və Rusiya, Fransa, ABŞ bunu müdafiə edir. Azərbaycan isə açıq surətdə bəyan edir ki, ATƏT-in Minsk qrupunun proseslərə qarışmağına ehtiyac yoxdur. 28 il bu işlə məşğul olsalar da, heç bir nizamlamaya nail olmadılar. Onların işini Azərbaycan Ordusu 44 gün ərzində həyata keçirdi.

İndi ATƏT-in Minsk qrupunun Qarabağda görəcəyi bir iş qalmayıb. Ona görə də Azərbaycan bu qrupun prosesə qatılmasını yenidən həmin ermənipərəst siyasi xəttin canlanması və proseslərə arzuolunmayan məsələlərin daxil edilməsinin daşıyıcıları kimi baxır". Politoloq hesab edir ki, erməni həyasızlığına son verilməsi üçün Azərbaycan müəyyən məqamları nəzərə alaraq öz Dəmir Yumruğunu hazır saxlamalıdır.

"Azərbaycan mövcud geosiyasi vəziyyəti nəzərə alaraq, Ermənistan ərazisinə daxil olmaq üçün hərbi əməliyyatlara başlaya bilməz. Ümid edirik ki, Ermənistan sülhün imzalanması çağırışlarına atəşlə yox, sazişlə reaksiya verəcək. Etiraf etmək lazımdır ki, Rusiya da bu istiqamətdə çalışır. Yəni sülh danışıqları prosesinin başlaması ilə prosesləri aparmaq olar. Ermənistan gah ATƏT-in fəaliyyətini, gah status məsələsini ortaya atmaqla yenidən qeyri-konstruktiv və davakar mövqe tutmağa başlayıb. Düşünürəm ki, hər bir məsələnin öz vaxtı var.

Azərbaycan qarşısında dayanan bütün maneələrin uğurla həll edilməsinə nail olacaq. Hələ ki, ermənilərin arxasında böyük qüvvələr çıxış edir. Azərbaycan erməni silahlılarını öz ərazilərindən çıxarmaqla məşğul olarkən beynəlxalq təşkilatlar ölkəmizi nələrdə təqsirləndirmədilər?!

Ona görə də Azərbaycan bütün Xristian dünyasına qarşı çıxış edə bilməz. Açıq xaç yürüşləri ideologiyası ilə Azərbaycana qarşı xoşagəlməz bir təbliğatın başlanğıcını qurmağa çalışırlar. Yaxşı ki, bir çox dost dövlətlər Azərbaycanın haqq səsini eşidir və dəstəkləyir".

✍ *Tahirə Qafarlı*

# Zakir Həsənov ABŞ generalı ilə sərhəddəki vəziyyəti müzakirə etdi

**Müdafiə naziri general-polkovnik Zakir Həsənov ABŞ-ın Oklahoma ştatının qubernatoru Con Kevin Stittin başçılıq etdiyi və həmin ştatın Milli Qvardiyasının komandanı general-mayor Maykl Tompsonun təmsil olunduğu nümayəndə heyəti ilə görüşüb.**

Hafta.az Müdafiə Nazirliyinə istinadən xəbər verir ki, Z.Həsənov azad edilmiş ərazilərdə, o cümlədən Ermənistan-Azərbaycan dövlət sərhədində yaranmış son vəziyyətə toxunaraq baş vermiş bugünkü insidentlə bağlı onlara ətraflı məlumat verib, gərginliyin artırılmasına görə məsuliyyətin Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşdüyünü qeyd edib.

C.K.Stitt Azərbaycan Ordusunun hərbi qulluqçularının Əfqanıstandakı "Qətiyyətli dəstək" qeyri-döyüş missiyasına verdiyi töhfəyə görə minnətdarlığını bildirib, mövcud hərbi əməkdaşlığın genişləndirilməsinin tərəfdarı olduğunu vurğulayıb. Ötən il qazanılan qələbənin Azərbaycan Ordusunun yüksək hazırlığının göstəricisi olduğunu qeyd edən Oklahoma Ştatının Milli Qvardiyasının komandanı general-mayor M.Tompson şəhid olanların ailələrinə başsağlığı verib.

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

Təsisçi və
baş redaktor:
Sevinc Seyidova

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.

Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000

"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X

Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Bakı Bəyannaməsi - yeni siyasi birlik

## Aktual

***Bakıda üç qardaş ölkənin - Azərbaycan, Türkiyə və Pakistanın parlament rəhbərləri bir araya gəldilər. Görüşdülər, danışdılar, sonda da Bakı Bəyannaməsini imzaladılar. Maraqlıdır, qanunverici orqan rəhbərlərinin indiki məqamda toplantı keçirib, bəyanat imzalamasının siyasi önəmi, iştirakçı ölkələrin maraqları baxımından siyasi əhəmiyyəti nədir? Pakistanda yaşayan beynəlxalq münasibətlər üzrə mütəxəssis, Pakistan, Azərbaycan, Türkiyə Gənclər Forumunun rəhbəri Musavar Hamid Tanoli Hafta.az-a müsahibəsində bildirir ki, bu iclas yalnız parlament əməkdaşlığını gücləndirməyə deyil, həm də ümumi əlaqələri, milli məsələlərdə qarşılıqlı dəstəyi artırmağa xidmət edir.***



"Üç qardaş ölkə arasında siyasi əməkdaşlıq gələcəkdə daha da gücləndiriləcək. Bundan öncəki son görüş "İslamabad Bəyannaməsi"nin imzalanması ilə başa çatdı və orada üç ölkənin siyasi, strateji, ticarət, iqtisadi, sülh və təhlükəsizlik, elm, mədəniyyət və digər sahələrdə əməkdaşlığı daha da dərinləşdirmək istədikləri bildirildi", - deyən müsahibimizin fikrincə, Bakı görüşünün siyasi əhəmiyyəti də böyükdür. Bu ölkələr siyasi müstəvidə, demək olar ki, birlikdə hərəkət edirlər. Bu baxımdan, parlament rəhbərlərinin görüşü üç dövlətin qanunverici orqanları arasında əməkdaşlığa öz töhfəsini verəcək.

Bir həqiqət var: parlamentlərin funksiyası qanunlar qəbul etməkdir. Nəzərə alaq ki, bu gün bu üç qardaş dövlət arasında iqtisadi-ticarət əlaqələrinin həcmi heç də ürəkaçan deyil. Yəni ticarət həcmi təbii potensialından qat-qat aşağıdır. Elə isə spikerlərin Bakı görüşü bu sahənin inkişafına da təkan verə biləcəkmi?

Musavar Hamid Tanolinin qənaətincə, parlamentlərin işi qanun qəbul etmək olsa da, bütün əlaqələrin inkişafına təkan verən hüquqi qaydalar da məhz burada müəyyənləşdirilir. "Bu görüşdə terrorizm, hibrid müharibə, islamofobiya və kiber hücumlar daxil olmaqla ortaya çıxan təhlükələr müzakirə ediləcək. Pakistan, Azərbaycan və Türkiyənin parlament spikerləri dünyanın müxtəlif yerlərində, xüsusilə də müsəlman ölkələrində insan haqlarının ciddi şəkildə pozulması və insanlığa qarşı cinayətlər barədə narahatlıqlara ciddi diqqət yetirirlər. Bu görüşün üç qardaş dövlət arasında siyasi, iqtisadi və ticarət əlaqələrinin inkişafına müsbət və səmərəli təsir göstərəcəyinə inanıram", - müsahibimiz deyir.

Maraqlıdır, parlament rəhbərlərinin Bakı görüşü gələcəkdə, məsələn, baş nazirlərin, prezidentlərin görüşünün keçirilməsinə yol aça bilərmi? Nəzərə alaq ki, daha əvvəl xarici işlər nazirləri bir araya gəlmişdilər. Demək mümkündürmü ki, Azərbaycan, Türkiyə və Pakistan rəsmi müttəfiqliyə doğru addımlayırlar? Cənab Tanoli deyir ki, əslində indiyədək də Pakistan, Azərbaycan və Türkiyə arasında çox güclü parlament əməkdaşlığı mövcuddur. "Liderlərimiz, dövlət başçılarımız dəfələrlə bir araya gəlib, vacib məsələləri müzakirə ediblər. Hesab edirəm ki, onlar məhz bu görüşdən sonra da, Pakistan, Azərbaycan və Türkiyə xarici işlər nazirlərinin "İslamabad Bəyannaməsi"nə əsasən İslamabadda toplaşdıqları kimi, görüşə bilərlər. Buna baxmayaraq, bu üç dövlətin rəsmi bir ittifaqa doğru getdiyini söyləmək çox tezdir. Bugünkü dünyamızda ölkələrin prioritetləri bir-birindən fərqlidir. İqtisadi ittifaq qura, ticari əməkdaşlığı

> *Parlament rəhbərlərinin görüşü üç dövlətin qanunverici orqanları arasında əməkdaşlığa öz töhfəsini verəcək*

genişləndirə bilərik, ancaq hərbi ittifaq yaratmaq çox çətindir. Niyə? Ona görə ki, düşmənlərimiz fərqlidir. Hər hansı ölkənin adını çəkmək istəmirəm, amma iqtisadi ittifaqın hərbi ittifaqdan daha yaxşı olduğunu düşünürəm. Üstəlik, Pakistan, Azərbaycan və Türkiyə hərbçiləri öz bölgələrində çox güclüdürlər. Türkiyənin Suriyada və digər bölgələrdə hərbi qüdrətini, İkinci Qarabağ müharibəsində Azərbaycan Ordusunun Vətən torpaqlarını qısa vaxtda düşmənin işğalından necə qurtardığını və Pakistan ordusunun ölkə daxilində terrorizmə qarşı necə uğurlu əməliyyatlar apardığını gördük" deyən müsahibimizə görə, ittifaq yaratmaq üçün hələ gözləməliyik.

Bütün bunlar öz yerində, bəs gələcəyimiz olan gənclərimiz ittifaq qurmaq barədə nə düşünürlər? Üç ölkənin gənclər təşkilatlarının rəhbərləri, parlament spikerləri kimi, gələcəkdə belə bir görüş keçirə bilərlərmi?

Müsahibimiz bunu birmənalı şəkildə mümkün sayır. Deyir ki, üç qardaş ölkənin gənclər təşkilatları arasında əlaqələri gücləndirmək günün zərurətinə çevrilib və bu səbəbdən də təşkilat rəhbərlərinin görüşü gözləniləndir. "Pakistan, Azərbaycan və Türkiyənin mədəniyyətini, ənənələrini, milli dəyərlərini başa düşmək və qarşılıqlı şəkildə təşviq eləmək üçün gəncləriimiz arasında əməkdaşlığı inkişaf etdirməliyik. Bu məqsədlə ölkələrimizin ali məktəbləri arasında tələbə mübadiləsi edilməlidir. Yəni Pakistan, Azərbaycan və Türkiyə arasında tələbə mübadiləsi, mədəni mübadilə və gənclər mübadilə proqramlarının icra olunması çox böyük səmərə verə bilər", - cənab Tanoli deyir.

Türkiyə-Azərbaycan Dərnəkləri Federasiyasının sədri Bilal Dündar bildirir ki, bu gün Türkiyə, Pakistan və Azərbaycan, keçmişdə bir çox hallarda az və çox qəbul edilmiş birgə əməkdaşlığın şərtlərini yenidən düzənləməyə, imkanları genişləndirməyə məcburdurlar. Ən əsası odur ki, hər üç qardaş dövlətin bir problem var. "Azərbaycan illərdir erməni işğalında inləyən torpaqlarını 44 gün sürən şərəf və qürur verən azadlıq savaşından sonra geri aldı. Açıq görürük ki, qardaş ölkənin bu uğurunu götürə bilməyən bəzi dövlətlər var. Eyni zamanda, Türkiyənin Azərbaycana açıq və konkret dəstəyi ilə də barışmırlar. Siyasi və iqtisadi müstəvidə edilən təzyiqlər bunun bariz nümunəsdir" deyən cənab Dündara görə, bir an belə gecikmədən bu məsələyə çözüm tapılmalıdır.

Dərnək sədri qeyd edir ki, Pakistan da onillərdir Kəşmir probleminin həlli ilə məşğuldur. O ki qaldı Türkiyəyə, dörd bir tərəfi od tutub yanır. "İraq üç yerə bölünmüş vəziyyətdədir və sonu necə olacaq, bilinmir. Türkiyə burada bəslənən terror təşkilatları ilə açıq mübarizə aparır. Bu azmış kimi, Suriyada da yeni cəbhə yaradılıb. Üstəlik, illərdir bu ölkədən canını götürüb Türkiyəyə sığınan 4 milyon qaçqın da əlavə yükdür çiynimizdə. Türkiyə həm də Liviyada yaşanan problemlərin içindədir" deyən Bilal Dündar əlavə etdi ki, daha bir münaqişəli vəziyyət də Kipr məsələs. idir. Onun fikrincə, Kipr yunanlarının hegemonluq iddiaları və dolayısıyla ENOSİS xəyalları bitmək bilmir. Bütün bunlara rəğmən, ABŞ da Yunanıstanın Türkiyə ilə həmsərhəd ərazilərində tank bazası yaradıb. Müsahibimiz qeyd edir ki, bu qədər problemin öhdəsindən dünyanın heç bir dövləti gələ bilməz. Böyük dövlətlət qondarma təşkilatlar yaradaraq "başqasının quşunu başqasının daşı ilə vurmağa" çalışırlar. "Qərb dövlətləri dini və etnik detallardan məharətlə istifadə edərək, bəzi ölkələrə gizli dəstək verməkdədirlər. Bütün bunların qarşısında siz istər-istəməz gücə çevrilmək istəyəcəksiniz, dost ölkələrlə birlikdə olma məcburiyyətində qalacaqsınız", - cənab Dündar deyir.

Yuxarıda qeyd etdiyimiz kimi, parlamentlərin işi qanunlar yazmaqdırsa, indiki məqamda spikerlərin bir araya gəlməsi üç qardaş ölkəyə nə qazandıra bilər? Bəlkə ölkələrin qanunlarını uzlaşdırmaq istəyirlər. Maraqlıdır, bu görüş ölkələrimizin siyasi, iqtisadi və ticarət əlaqələrinin genişlənməsinə töhfə verə bilərmi? Müsahibimiz deyir ki, əlbəttə verə bilər, necə ki, daha öncə üç qardaş ölkənin xarici işlər nazirləri bir araya gəlmişdilər, bu gün də görüşlərin davamı kimi, parlament başqanları Bakıda toplaşıblar. "Türkiyə parlamentinin sədri Mustafa Şəntop, Azərbaycan Milli Məclisinin sədri Sahibə Qafarova və Pakistan parlamentinin rəhbəri Əsəd Qayseri ölkələrarası əlaqələrin inkişafına qanunverici sahədə mane olan əngəlləri müzakirə etdilər, üstəlik, ölkələrimizin indiki vəziyyətdə daha sıx əməkdaşlıq və həmrəylik içində olmalarını vacib saydılar. Bu, sonda qəbul edilmiş Birgə Bəyannamədə də öz əksini tapıb" deyən Bilal Dündara görə, siyasi önəmi çox

> *Türkiyə, Azərbaycan və Pakistanın yaratdığı qardaşlıq karvanına yaxın gələcəkdə digər türk dövlətləri də qoşulmalıdır*

böyük olan bu görüş böyük uğurlar vəd edir.

Müsahibimiz deyir ki, indiyədək siyasi, iqtisadi, ticari və digər sahələrdə əlaqələrimizi daha irəli aparmaq üçün birliyi gücləndirməyə məcburuq. Onun fikrincə, bu üç qardaş ölkə öz aralarında hər cür fərqli fikir və mövqeləri uzlaşdırmağı bacarmalıdır. Bu isə son anda böyük uğurlarla nəticələnəcək. Bilal Dündar qeyd etdi ki, hazırda Türkiyə, Azərbaycan və Pakistanın yaratdığı qardaşlıq karvanına yaxın gələcəkdə digər türk dövlətlərinin də qoşulmasını arzulayır. "Keçmişdə yaşadığımız yanlışlıqlardan, buraxdığımız səhvlərdən dərs almalıyıq. Real şərtlər bizi qucaqlaşmağa, sağlam başlı birlik yaratmağa məcbur edir. Əminəm ki, bu güc birliyi haqsızlığa qarşı haqqın səsi edəcək bizi", - dərnək başqanı vurğulayır.

✍ *Vüsal Tağıbəyli*

## Dünya

# Xalq küçələrə axışıb, Prezidentin qərarını alqışladı

***Bu həftəni İslam və Ərəb dünyası həyəcanlı xəbərlə başladı - Tunisdə bir saat ərzində Prezident tərəfindən parlament və hökumət buraxılıb. Hələ bu azmış kimi, millət vəkillərinin toxunulmazlıq statusu ləğv edilib ki, günahı olanlar məsuliyyətə cəlb olunsunlar. Bu, qanunidir, yoxsa vəzifəli şəxs tərəfindən seçilmiş orqanlara qarşı çevrilişdirmi? Ümumiyyətlə, Prezidentin indiki məqamda bu qərarı verməsi lazım idimi? Axı Parlamentdə və hökumətdə təmsil olunan Ən-Hahda Hərəkatı ölkənin ən iri siyasi cəbhəsidir.***



**Sana Kliç Oydi**
"TAP Xəbər" Agentliyinin əməkdaşı xanım

Tunisin Azərbaycanda diplomatik nümayəndəliyi olmadığı üçün, baş verənlərə aydınlıq gətirmək məqsədilə rəsmi media quruluşu olan **"TAP Xəbər" Agentliyinin əməkdaşı xanım Sana Kliç Oydi** ilə söhbətləşdim. Ölkəsində baş verənlər barədə gəlin xanım Oydinin öz dilindən eşidək:

- Prezident Qais Sayed iyulun 25-də - bazar günü Baş nazir Hişam əl-Meşişini vəzifəsindən azad etmək, eləcə də Xalq Nümayəndələri Məclisini buraxmaq haqqında qərar qəbul edib. Bununla da millət vəkillərinin toxunulmazlıq statusu götürüləcək və korrupsiyaya qurşanan, adı rüşvətdə hallananlar cinayət məsuliyyətinə cəlb edilə biləcəklər. Prezident Sayed yeni quracağı keçici hökumətə müvəqqəti baş nazir təyin edəcək. Bütün bunlar tam qanuni şəkildə həyata keçirilir. Tunis Konstitusiyasının 80-ci maddəsində hökuməti, parlamenti buraxmaq üçün dövlət başçısına müstəsna hüquq verilib.

***- Maraqlıdır, prezindentlə parlament və hökumət arasındakı əsas anlaşılmazlıq nələrdir?***

- Bu böhranın kökü 7 il əvvələ uzanır. 2014-cü ildə parlamentlə prezident arasında hibrid bir siyasi sistemi təmin edən yeni konstitusiyanın qəbulundan sonra, Prezident Admnistrasiyası ilə Parlament arasında səlahiyyət bölgüsü məsələsində mübahisə yaşanır. Məhz bu siyasi fikir ayrılıqları üzündən Tunisdə aylardır davam edən siyasi böhran dövlət qurumlarının işinin pozulmasına gətirib çıxardı. Bu da öz növbəsində, tunislilərin sosial dolanışığına, yoxsulluq səviyyəsinin artmasına səbəb olub. Problem bununla da bitmir, fikir ayrılıqlarının ölkədə yaratdığı vəziyyət koronavirusdan gündəlik yoluxma sayının artmasına və təbii ki, itkilərin çoxalmasına gətirib çıxarıb. Tunisdə bütün sahələrdə korrupsiya və qanun pozuntuları baş alıb gedir. İş o yerə çatıb ki, parlamentdə fərqli blokları təmsil edən millət vəkilləri arasında mövcud olan siyasi gərginlik bəzi hallarda onların bir-birini təhqir etməsinə, hətta əlbəyaxa olmasına rəvac verib. Parlamentdə daxili nizam-intizam tam pozulmuşdu, bəzən iclaslar belə keçirilmirdi.

***- Sizin də sözlərinizdən aydın olur ki, problem uzun müddətdir mövcuddur. Görəsən, Prezident Sayed əvvəllər Baş nazirlə bütün bu xoşagəlməzlikləri həll etmək üçün hər hansı şəkildə danışıqlar aparıb?***

- Hə, əlbəttə. Hər halda rəsmi məlumatlarda deyilir ki, Prezident Sayed qərar qəbul etməzdən öncə bununla bağlı Baş naziri və Xalq Nümayəndələri Məclisinin sədrini məlumatlandırıb. Yalnız bundan sonra konstitusiyanın 80-ci maddəsinə əsaslanaraq məlum qərara imza atıb. Bu zərurətdir, çünki dövlətimiz təhlükə qarşısındaydı.

***- Fərqli xarici media mənbələrinin məlumatlarını izlədim. Qənaətim bu oldu ki, Prezident bu qərarı qəfil verib, hətta o qədər gözlənilməz olub ki, hökumət və parlament üzvləri şoka düşüb...***

- Parlamentin sədri və eyni zamanda Ən-Nahda Hərəkatının lideri Raşid əl-Gannuşi prezidentin bu qərarından təəccübləndiyini və Sayedin onlar haqqında verdiyi tövsiyələri inkar edir. O və komandası belə düşünür ki, baş verənlər qanunlara, konstitusiyaya və seçilmiş qurumlara qarşı zərbədir, qəbul edilən qərar ləğv olunmalıdır. Buna baxmayaraq, məlum qərar veriləndən bir gün sonra Baş nazir Hişam əl-Meşişi öz açıqlamasında bildirdi ki, Tunisdə vəziyyəti ağırlaşdıracaq hər hansı pozucu elementin bir parçası olmayacaq. Hişam əl-Meşişi, Tunis xalqının tələblərinə boyun əyəcəyini, qayda-qanunlara uyacağını və öz yerini qanunlar çərçivəsində, Prezidentin təyin etdiyi müvəqqəti Baş nazirə təhvil verəcəyini bildirib. Buna baxmayaraq, o, hər zaman ölkəsinin və xalqının inkişafı üçün əlindən gələni edəcək.

***- Sadə Tunis xalqı baş verənlər barədə nə düşünür?***

- Tunis xalqı Nümayəndələr Palatasının buraxılmasına və Baş nazirin istefaya göndərilməsə ciddi dəstək verdi. Tunisdəki bir neçə siyasi partiyanın da iştirakı ilə, yüzlərlə insan əllərində Tunis bayrağı küçələrə

> *Məhz bu siyasi fikir ayrılıqları üzündən Tunisdə aylardır davam edən siyasi böhran dövlət qurumlarının işinin pozulmasına gətirib çıxardı*

axışaraq, Prezidentin qərarını alqışladı. Bu da göstərdi ki, prezident Sayed məhz kütlənin istəyinə uyğun addım atıb. Xalq xüsusilə də Parlamentin buraxılmasından və millət vəkillərinin toxunulmazlığının ləğvindən çox məmnundur. Tunislilər ümid edirlər ki, Prezidentin məlum qərarından sonra, ölkədə yeni seçiləcək parlament və qurulacaq hökumət Tunisin bütün sosial problemlərini aradan qaldıracaq, gündən-günə artan və indiyədək on minlərlə insanın yaşamına son qoymuş koronavirusa yoluxma hallarının qarşısını ala biləcək.

***- Hazırda bütün səlahiyyətlərin bir əldə cəmlənməsinə münasibət necədir?***

- Təşkilatlar və partiyalar, məlum qərarın qanunlar çərçivəsində tətbiq olunması şərti ilə dövlət başçısına dəstək verdiklərini bildiriblər. Amma onlar, eyni zamanda qanunverici, icraedici və məhkəmə hakimiyyətinin olmasına baxmayaraq, diktatura meydanına sürüklənə biləcəklərindən narahatlıqlarını da ifadə ediblər. Məlumat üçün deyim ki, hazırda bütün səlahiyyətlər Prezidentin əlindədir.

✍ *Vüsal*

# Şeyxülislamdan belə bir açıqlama gözləmirdim

## Müsahib

***Siyasi elmlər doktoru, politoloq Cümşüd Nuriyevlə hafta.az üçün növbəti söhbətimizdə son dövrdə gündəmdə olan əsas mövzulardan - Azərbaycan, Türkiyə və Pakistanın parlament rəhbərləri səviyyəsində imzalanmış Bakı Bəyannaməsinin siyasi və iqtisadi əhəmiyyətindən, Şuşa ziyarəti zamanı "Ayətullah Xamneyinin "Qarabağ torpağı İslam torpağıdır", - deyərək fətva verməsi qələbənin carçısı idi və bizi qələbəyə apardı" deyən Şeyxülislam Allahşükür Paşazadəyə qarşı ittihamlardan, ABŞ-ın Ermənistandakı səfirinin yenə Kəlbəcər istiqamətində Azərbaycanla sərhədə gələrək Minsk qrupu çərçivəsində danışıqları bərpa etməyə çağırmasından və s. danışdıq.***

***- Cümşüd bəy, Azərbaycan və Türkiyə prezidentləri səviyyəsində Şuşa Bəyannaməsinin imzalanmasından bir aydan bir az çox müddət ötməmiş, üç qardaş və dost ölkənin qanunverici orqanları səviyyəsində imzalanmış növbəti Bəyannaməni necə dəyərləndirmək olar?***

- Bu görüşü və sonda imzalanan sənədi çox yüksək dəyərləndirirəm. Əvvəla, Bakı Bəyannaməsi yeni bir türk-müsəlman ittifaqının rəsmən əsasını qoyacaq: 210 milyonluq Pakistan, 85 milyon Türkiyə, üstəgəl 10 milyonluq Azərbaycan... Bu minvalla müsəlman dünyasının təxminən 300 milyonluq yeni bir ocağı, mərkəzi formalaşır.

İkincisi, bu sənəd hər üç ölkənin bir araya gəlmiş qanunverici orqanları səviyyəsində imzalanır. Bu da yaxın gələcəkdə beynəlxalq hüquq müstəvisində hər üç ölkənin qanunvericilik bazasının bir-birinə yaxınlaşdırılmasının da əsasını qoyur...

Üçüncüsü, 44 günlük Vətən müharibəsi də göstərdi ki, bu 3 ölkə arasında həddən böyük yaxınlıq, qardaşlıq, dostluq var: nüvə silahına malik yeganə müsəlman dövləti olan Pakistan, NATO-da ikinci güclü orduya malik olan Türkiyə və ordusu öz gücünü son Qarabağ savaşında dünyaya təqdim edən Azərbaycan... Bu 3 ölkə ordusunun bir araya gəlməsi üçün qanunvericilik bazasının yaradılmasından ötrü də, yəqin ki, yaxın gələcəkdə nələrsə düşünüləcək.

Dördüncüsü, bu sənəd həm də İslam dünyasını gözdən salmağa cəhd edənlərə, islamofobiyaya qarşı bir sivil birlik mesajı olacaq. Bilirsiniz, bütün dinlərin daşıyıcıları tərəfindən hər cür xətalar, səhvlər, günahlar, cinayətlər törədilir. Fəqət, bunlar müsəlmana aid olanda əsas beynəlxalq güc mərkəzləri və media tərəfindən dinin, yəni İslamın adına yazılır. Digər səmavi dinlər - istər Xristianlıq, istərsə də İudaizm mənsublarının xəta və günahlarını müzakirə edəndə dini yox, konkret adamları günahlandırırlar. Yəni bu məsələyə bir son qoymaq lazımdır. Bütün dünyaya qəti şəkildə anlatmaq gərəkdir ki, biz müsəlman olaraq İslam dininin daşıyıcısıyıq. Biz digər dinlərə də hörmətlə yanaşırıq. Hansısa müsəlmanı hər hansı bir xətanı, cinayəti törətməyə İslam məcbur etmir. Bu, onun fərdi xüsusiyyətlərinin, ailə tərbiyəsinin, təhsilinin, yetişdiyi mühitin, sosial durumunun və s. nəticələri kimi ortaya çıxır... Bir sözlə, Azərbaycan-Türkiyə-Pakistan İttifaqı tərəfindən islamofobiyaya qarşı mübarizə istiqamətində də mühüm addımlar atılacağına inanıram...

Beşincisi, Bakı Bəyannaməsi, zənnimcə, Azərbaycanla həm əhali, həm ərazicə müqayisədə iki böyük ölkənin iştirakıyla vahid bazarın yaradılmasına da yol açır. Yəni, üç ölkənin birbaşa sərhədləri olmadığına görə vahid iqtisadi məkan yaratmaları çətindir, amma vahid bazar yaradılması mümkündür. Bu ölkələr arasındakı ödəmələr dollar və avro ilə yox, özlərinin valyutalarının müvafiq kursu ilə də müəyyənləşdirilə bilər...

Yəni çox işlər görmək olar. Bir sözlə, Bakı Bəyannaməsinin hər 3 ölkə arasında yaxın gələcək üçün iqtisadi, siyasi, ideoloji və hərbi sahədə yeni yol xəritələrinin hazırlanmasına gətirib çıxaracağına inanıram.

***- Bildiyiniz kimi, 1998-ci il sentyabrın 8-də Azərbaycan tarixə "Bakı Bəyannaməsi" kimi düşmüş daha bir sənəd imzalayıb. Bu, o zaman Böyük İpək Yolunun bərpasına dair Azərbaycan paytaxtında 32 ölkənin və 13 beynəlxalq təşkilatın nümayəndə heyətlərinin iştirakı ilə keçirilmiş beynəlxalq konfransın yekununda imzalanmış tarixi-hüquqi sənəd olub. Hazırda Böyük Britaniyanın da dəstək verdiyi Çinin "Bir kəmər - bir yol" adı qoyduğu həmin Böyük İpək Yolu layihəsinin 44 günlük savaşın nəticələrinə əsasən açılmalı, əslində bərpa edilməli olan yeni və sərfəli bir həlqəsinin - Zəngəzur dəhlizinin bugünkü Bakı Bəyannaməsinin müəllifləri: Azərbaycan, Türkiyə və Pakistanla yanaşı, elə 23 il öncəki Bakı Bəyannaməsini imzalamış bütün dövlətlər üçün də sərfəli olduğunu söyləmək olarmı?***



**Cümşüd Nuriyev,**
siyasi elmlər doktoru, politoloq

- Bəli, 23 il öncə Bakı İpək Yolunun bərpası haqqında Bakı Bəyannaməsi Heydər Əliyevin təşəbbüsü ilə qəbul olundu. Həmin Bəyannamə Azərbaycandan tranzit olaraq keçməklə Böyük İpək Yolunun canlandırılması məsələsini gündəmə gətirdi. Bəli, hazırda bu layihə Çin tərəfindən "Bir kəmər - bir yol" adlanır. Əslində, bunun əsasında Turançılıq ideyası dayanır, çünki tarixən Turan Çindən başlanır, Avropada qurtarırdı. Yəni tarixi heç kəs dana bilməz. 1990-cı illərdə heç kəs Turan barədə danışmırdı. Yalnız rəhmətlik Elçibəy xatırladırdı Turanı... Bütün hallarda bu ideya reallaşmaq üzrədir. Xüsusilə, 10 Noyabr 2020-ci il tarixli üçtərəfli razılaşma əsasında Zəngəzur dəhlizinin də bərpası məsələsi rəsmən gündəmə gətiriləndən sonra... Bu, yalnız bölgədəki 6 dövlətlə əlaqədar deyil. Hətta Rusiya da həmin dəhlizin açılmasını istəyir. Zəngəzur dəhlizinin açılmasını istəməyən tək İrandır. İran heç zaman səmimi olmayıb, olmayacaq da. Bu haqda danışmağın mənası yoxdur. 1300 ildir İranı ayaqda türklər saxlayıb. Əgər farslar həmin 1300 illik tarixinə xəyanət edirsə, bundan sonra onlardan nə isə gözləmək, ən azı, sadəlövhlükdür...

Zəngəzur dəhlizinin açılması həm də Türkiyə üzərindən Avropaya açılmaqdır. Həm quru daşımaları önəmlidir, həm də qurudan dənizə keçid çox rahat olacaq. Türkiyə 3 tərəfdən dənizlərlə əhatə olunub. Nəzərə alaq ki, bu ölkədən Hind okeanına, həm də Atlantik okeanına çıxış çox asandır, yəni dünya okeanına çıxışı da təmin edir. Bütün bunların fonunda Zəngəzur dəhlizinin bərpası İpək Yolunun bərpası haqda 1998-ci il Bakı Bəyannaməsini imzalayan ölkələrin, demək olar ki, hamısı üçün uyğundur. Burada da əsas açar dövlət Azərbaycandır. Azərbaycan Avropanı Asiyaya, Asiyanı Avropaya bağlayan bir qovşaq rolunu oynayır. Odur ki, inanıram ki, Zəngəzur dəhlizinin bərpası böyük dövlət və güclərin marağında olduğundan Ermənistan və onun yanındakı Fransa və İran da bunun qarşısını almaq iqtidarında olmayacaq...

> "Bakı Bəyannaməsi yeni türk-müsəlman ittifaqının əsasını qoyacaq

***- Şuşa ziyarəti zamanı "Ayətullah Xamneyinin "Qarabağ torpağı İslam torpağıdır" deyərək fətva verməsi qələbənin carçısı idi və bizi qələbəyə apardı" deyən Şeyxülislam Allahşükür Paşazadəyə qarşı ittihamlara siz necə yanaşırsınız?***

- Düzü, Şeyxülislamdan belə bir açıqlama gözləmirdim. Çox yersiz və vaxtsız açıqlamadır. Bunun yalnız İranın maraqlarına cavab verdiyini söyləmək olar. İran isə öncə xatırlatdığımız kimi, Azərbaycanın, Türkiyənin bölgədəki bütün layihələrinin əleyhinədir... Şahidi olduğum bir fakt haqqında ilk dəfə sizə danışacağam. 1992-ci ildə - dövlətimizin müstəqilliyinin yenicə bərpa olunduğu zəif çağlarında bu ölkənin ölkəmizə qarşı fəaliyyətini təsdiqləyən bir olaydan bəhs edəcəyəm...

Azərbaycan Ordusu yenicə yaranırdı. 1992-ci ilin mayında, Yaqub Məmmədovun Prezident səlahiyyətlərini icra etdiyi vaxtlarda məlum oldu ki, Qarabağdakı bir neçə döyüş əməliyyatında, xüsusilə Xocalı soyqırımı zamanı Milli Ordumuzun geyimində Azərbaycan dilində danışan dəstələrin mülki vətəndaşlarımızı qətlə yetirməsi barədə faktlar üzə çıxıb. Bu, dövlətdə çox ciddi təşviş və narahatlıq yaratdı. Həmin faktları araşdırmaq üçün göstəriş verildi. Milli Təhlükəsizlik Nazirliyi aydınlaşdırdı ki, hərbi geyimlər ermənilərə ötürülür və bütün istiqamətlərdə araşdırmalara başladıq. O zaman mən Dövlət Gömrük Komitəsində operativ nəzarətə rəhbərlik edirdim. Dövlətin tam məxfi və gizli bir komissiyası fəaliyyətə başladı. Maraqlandıq ki, Bakıda tikilən hərbi geyimlərin sayı məhduddur. Bütün hərbi hissələrə, özünümüdafiə taborlarına rəsmi sənədlərlə neçə hərbi forma verilməsi və faktiki döyüşçülərin əynində olan geyimlərin sayını araşdırdıq. Sonda bəlli oldu ki, Füzuli istiqamətindəki özünümüdafiə taborunda 100-ə yaxın hərbi forma çatışmır. MTN orada əməliyyat tədbirləri apardı və məlum oldu ki, ərazidəki döyüşçülərimiz arasında əksəriyyəti ermənimənşəli olan xüsusi təxribat qrupu fəaliyyət göstərir. Onlar hərbi forma ilə yanaşı, silahları da ələ keçirərək gizli yollarla İrana satırlar. İrandan isə həmin geyim və silahlar Ermənistandan üzərindən Qarabağdakı terrorçu birləşmələrə ötürülür...

Azərbaycan dilində bilən ermənilərin soydaşlarımızı qətlə yetirməsində məqsəd isə Xocalı soyqırımından sonra olduğu kimi, guya Azərbaycanın daxilindəki qüvvələrin özlərinin müəyyən məqsədlərlə dinc azərbaycanlıları qətlə yetirməsi barədə çirkin təbliğat aparmaq idi. Bundan artıq nə demək olar?..

Ona görə də Şeyxülislamın açıqlamasında bir neçə məqsəd olduğunu söyləmək mümkündür. Türkiyə və İsraili Azərbaycanın maraqlarına xidmətdən kənarlaşdırmaq, Azərbaycan Ordusunun qələbəsinə kölgə salmaq, Azərbaycan Prezidentinin - Ali Baş Komandanın apardığı siyasi və hərbi taktikaya kölgə salmaq və Azərbaycanın şəhidlər verməsini dini müstəviyə çəkmək.

***- Cümşüd bəy, iyulun 26-da ABŞ-ın Ermənistandakı səfiri Kəlbəcər istiqamətində Azərbaycanla sərhədə gəldi və yenidən bir növ Azərbaycanın daxili işlərinə müdaxilə edərək Minsk qrupu çərçivəsində danışıqları bərpa etməyə çağırdı. Bu, nə deməkdir?***

- Bilirsiniz, bütün bunların günahı Azərbaycan Xarici İşlər Nazirliyindədir ki, yersiz söz danışan xarici ölkə rəsmilərinin dərhal, yerindəcə cavabını vermir. Məsələn, bu yaxınlarda Azərbaycan Prezidenti bir daha Qarabağdakı ermənilərə heç bir status verilməyəcəyi haqda danışandan sonra Fransanın Azərbaycandakı səfiri Bakıda çıxış edərək həm ölkəmizi təhdid etdi, həm də Qarabağ erməniləri üçün status tələb etdi. Buna qarşı XİN-dən heç bir addım atılmadı. Niyə Fransaya qarşı etiraz notası verilmədi? Niyə bu ölkənin səfiri XİN-ə çağırılaraq ona yeri bildirilmədi? Beynəlxalq hüquqda qayda belədir. BMT Nizamnaməsindəki 10 prinsipdən birinci beşliyə daxil olan qaydalar var. Hansısa bir dövlətin daxili işinə qarışmaq - onu təhdid etməkdir. Fransa kimdir, onun səfiri kimdir ki, Bakıda oturub Azərbaycanı təhdid edir? Bəs o başqa vaxt gur-gur guruldayan siyasi partiyaların niyə səsi çıxmadı? Niyə Fransa səfirliyi qarşısında bir piket təşkil edib sərt bir bəyanat vermədilər? Belə çıxır ki, onların gözü kölgəlidir. Niyə deputatların əksəriyyəti susdu? Yalnız mediada sərt yazılar, müsahibələr yer aldı. Halbuki bu, dövlət, siyasi qurumlar səviyyəsində deyilməlidir. Məgər hər şeyi Prezident, Ali Baş Komandan deməlidir. Bəzilərinin rüşvət yığanda Prezidentin korrupsiyaya qarşı sərt çıxışları yadına düşmür. Amma dövlətlə bağlı konkret bir iş görmək gələndə hamısı dövlət başçısından göstəriş, tapşırıq gözləyir. Yəni özlərinin şəxsi marağı olanda tez irəli atılırlar, amma dövlət maraqlarını qorumaq lazım gələndə...

Xülasə, sözüm ondadır ki, ABŞ-ın Ermənistandakı səfirinin sözügedən mövzuda əvvəlki bəyanatlarına Azərbaycan XİN rəhbərliyi heç olmasa mətbuat katibi, şöbə müdiri səviyyəsində ciddi təpki göstərsəyidi, həmin səfir son bəyanatında da Minsk qrupundan-filandan danışmazdı...

***✍ Sultan Laçın***

## Gündəm



**Teymur Qasımlı,**
beynəlxalq münasibətlər üzrə analitik

***Son aylar, xüsusən iyulun əvvəllərindən bəri həm Azərbaycan-Ermənistan sərhədində, həm də Yuxarı Qarabağda atəşkəsin yaralı və hətta itkilərlə müşayiət olunan mütəmadi pozulması müşayiət olunur. İyulun 28-nə keçən gecə Kəlbəcərlə sərhəddə vəziyyət daha da gərginləşib. Ermənistan ordusu 3 itki verib. Atəşkəsin mütəmadi pozulması səbəblərini izah edən əsasən 3 versiya səslənir:***

# "Rusiya Azərbaycan - Ermənistan sərhədində gərginlik olmasında maraqlıdır"

*1. Paşinyan bunu təşkil etməklə dünyanın, Avropa və ABŞ-ın diqqətini Ermənistana cəlb etməyə, eyni zamanda bununla ermənilərin diqqətini daxili problemlərdən, o cümlədən seçkilərin nəticələrindən yayındırmağa çalışır.*

*2. Qərb ölkələri, xüsusən Fransa və ABŞ atəşkəs pozuntusunu təşkil edərək Rusiyanın bölgədə sabitliyi təmin edə bilmədiyi təəssüratını yaratmaqla və Minsk qrupunun fəaliyyətini bərpa etməklə Ermənistana təsir rıçaqlarını öz əlinə almağa, o cümlədən sərhəd və Qarabağ ərazisinə müşahidəçi, yaxud sülhməramlı adıyla öz qoşunlarını yeritməyə çalışır. Bu versiyanı Rusiya tərəfi də mütəmadi səsləndirir.*

*3. Atəşkəsi Rusiya pozdurur ki, həm Azərbaycan, həm də Ermənistan bilsin ki, o, olmasa, regionda sabitlik olmayacaq və yenidən genişmiqyaslı əməlliyyatlar başlayacaq və Moskva bunu bəhanə edib. Qarabağdakı sülhməramlı adlanan hərbi kontingentin sayını artırmağa, eləcə də Ermənistanın Azərbaycanla sərhədini bütövlükdə nəzarətə götürməyə çalışır.*

Görəsən, bu versiyalardan hansı gerçəkliyə daha yaxındır?

**İstanbul Universitetinin beynəlxalq münasibətlər üzrə doktorantı, beynəlxalq münasibətlər üzrə analitik Teymur Qasımlı ilə hafta.az üçün növbəti söhbətimizdə bu və ya digər suallar ətrafında müzakirə apardıq.**

- Hesab edirəm ki, atəşkəsin pozulması haqqında sadaladığınız versiyalardan üçüncüsü gerçəkliyə daha yaxındır. Rusiya son zamanlar Ermənistanın Avropaya çox yaxınlaşmasından narahatdır. Bu baxımdan, Moskva Ermənistanda ABŞ, yaxud Fransanın güclənməsini istəmir. Son vaxtlar Avropa Birliyinin Ermənistana yardımı da Kremli bərk narahat edir.

Zənnimcə, atəşkəsin pozulmasının səbəblərindən biri də Qarabağda daşnakların aktiv fəaliyyətdə olmasıdır. Eyni zamanda sovet dövründən bəri Moskvanın adamı, Putinin dostu olan Xocalı qatili terrorçu eks-prezident Robert Köçəryan və daşnaklar oyuncaq separatçı rejim tör-töküntüsünün rəhbəri Araik Arutyunyanı devirmək üçün birlikdə hərəkət edirlər. Ona görə də atəşkəsin pozulmasında maraqlıdırlar. Araikin yenə də Moskvaya gizli səfəri gözlənilir. Hətta yeni bir məlumata görə, Araik ətrafına bildirib ki, oyuncaq qurumda "seçki"lər olacaq və o, siyasətdən getmək istəyir...

O da var ki, Nikol Paşinyan da Ermənistan silahlı qüvələrindəki Rusiyameyilli qüvvələri zərəsizləşdirmək istəyir və bunun üçün addımlar atır. Rusiya isə bu gərginlikdən istifadə edib Ermənistanın Azərbaycanla olan bütün sərhədlərinin mühafizəsini öz əlinə keçirmək istəyir. Məqsəd Rusiya qoşunlarının Kəlbəcərlə sərhəddəki Zod kəndindən başlayaraq cənubda Laçın rayonunun Xəzinəvar kəndinə qədər olan sərhəd zolağında yerləşdirilməsidir. Hələ ki, Paşinyan buna qarşı çıxır...

> Kreml bu gərginlikdən yararlanaraq, Ermənistanın Kəlbəcərdən Laçınadək sərhədinin mühafizəsini öz əlinə keçirmək istəyir...

Ən vacib məsələlərdən biri də üzdə açıq bildirməsə də, əslində Kremlin dolayı təzyiqlərlə Azərbaycan dövlətindən Qarabağdakı ermənilərə status istəməsidir. Rusiya Azərbaycan Ermənistan arasında, o cümlədən sərhədlərdə gərginliyin daimi olmasında çox maraqlıdır. Bu imperiya 208 ildir ki, eyni siyasəti aparır...

***- Azərbaycandakı səfiri xarici diplomatların son Şuşa səfərinə qatılmayan ABŞ-ın Ermənistandakı səfiri iyulun 26-da erməni hərbçilərlə birgə Kəlbəcərlə sərhədə gəldi və tərəfləri Minsk qrupu çərçivəsində danışıqları bərpa etməyə çağırdı. Ertəsi gün isə İrəvanda qəsbkar ölkənin Diaspor işləri üzrə baş komissarı Zare Sinanyanla görüşdü. Həmin görüşdə "Birləşmiş Ştatlar çoxdankı tərəfdaşı olan erməni diasporunun dinamik səylərini dəstəkləyir", - deyə bildirdi. Bütün bunlarla ABŞ dövləti Azərbaycana nə demək istəyir?***

- Bilirsiniz, ABŞ-ın Azərbaycandan öz geosiyasi maraqlarına uyğun istəkləri var. Ən əsası da Rusiya ilə bağlı istəkləri çoxdur. ABŞ yenidən fəal şəkildə Qarabağla bağlı ATƏT-in Minsk qrupuna qayıtmaq istəyir. Bu məsələni Fransa və Rusiya da istəyir. Ən önəmlisi ABŞ da Qarabağdakı ermənilərə status verilməsi marağındadır. Ona görə ki, rəsmi Vaşinqton Qarabağda rus hərbi kontingentinin olmasından narahatdır. ABŞ yaxşı bilir ki, Rusiya onun Mərkəzi Asiyaya çıxışı olan Zəngəzur dəhlizinin açılmasını istəmir. Məhz sadaladığım bu və digər səbəblərdən də Ağ ev, səfirin də dediyi kimi, "çoxdankı tərəfdaşı olan erməni diasporunun dinamik səylərini dəstəkləməklə" onun vasitəsilə Ermənistana və bütövlükdə regiona təsir rıçaqlarını daha ciddi şəkildə ələ keçirməyə çalışır...



***- Teymur bəy, hazırkı durumda Fransa, digər Avropa ölkələri və ya ABŞ-ın birləşmiş sülhməramlı qoşunlarının Yuxarı Qarabağ və ya Ermənistan-Azərbaycan sərhədinə yerləşdirilməsi nəzəri cəhətdən mümkün ola bilərmi?***

- Hesab edirəm, bu, hazırda istər nəzəri, istərsə də praktiki baxımdan mümkün deyil, yaxın gələcəkdə də mümkün olmayacaq. Rusiya buna heç vaxt imkan verməz. Bu, Rusiyanın dövlət maraqlarına qarşıdır...

***✍ Sultan Laçın***

# Uşağın inkişafında əsas yük

## Layiha

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması

***Ailədə uşağın hərtərəfli inkişafı və şəxsiyyət kimi formalaşması asan məsələ deyil. Bəzən müəyyən bir nəticə əldə etmək üçün böyük səy və səbir etmək lazım gəlir. Şəxsiyyətin formalaşmasının sosial institutu kimi ailə böyük əhəmiyyətə malikdir. Yalnız ailədə bir insan sonrakı həyat üçün lazım olan bacarıqları inkişaf etdirə bilər. Mütəxəssislər hesab edirlər ki, özünü inkişaf etdirmə bacarıqlarına yiyələnən uşaq, güclü təcrübə və özünütəsdiq etmədən tam inkişaf edir. Valideynlər mənəvi təcrübə edirlərsə və ya sadəcə başqa bir şəkildə özləri üzərində işləyirlərsə, oğul və ya qızın həyatda həqiqətən uğurlu bir insan olmaq şansları var. Şəxsiyyət inkişafı həmişə bir çox amillərin təsiri altında tədricən baş verir və bu məsələdə ata-ananın üzərinə böyük məsuluyyət düşür.***



## Kimin üzərinə düşür? Ananın, yoxsa atanın?!

Unutmaq olmaz ki,valideynlərin uşaqlarla münasibəti yeniyetməlik, gənclik yaşı dövründə də onların formalaşmasında əhəmiyyət kəsb edir. Maraqlıdır, görəsən, uşağın inkişafında əsas yük kimin üzərinə düşür? Uşağın şəxsiyyət kimi formalaşmasında ata yoxsa, ana daha çox məsuliyyət daşıyır?

■ **Məsələyə münasibət bildirən uşaq psixoloqu Kəmalə Baxış deyir ki, uşaqların inkişafında 3 əsas amil rol oynayır: genetika, mühit, tərbiyə. Onun sözlərinə görə, bu 3 faktor ayrı-ayrılıqda uşaqların inkişafını şərtləndirir:**

"Alimlər sübut ediblər ki, ağıl atandan genetik olaraq qıza, anadan isə oğula ötürülür. Yəni, loru dildə desək, kimin qabında nə varsa odur. İkincisi mühitdir ki, bu, uşağın gələcək inkişafına ciddi təsir edir. Üçüncüsü isə tərbiyədir və tərbiyə metodunu düzgün seçmək valideynlərin üzərinə düşən əsas məsuliyyətdir. Əgər uşaqların ata və anaları daima işdədirlərsə, uşaq ya bağçada, ya da dayə yanında qalır və biliyi də onlardan alır. Əgər ana evdədirsə, bu məsələ ilə bağlı ana məşğul olmalıdır. Ya özünün savadı varsa, uşaqla birbaşa özü məşğul olur, ya da kənardan peşəkar mütəxəssis xidmətindən istifadə edir.

İndi hər cür imkan var ki, analar öz övladlarını formalaşdırsınlar. Əslində, bu proses hələ hamiləlik dövründən başlamalıdır. Ana uşaqların inkişafı ilə bağlı müxtəlif kitablar almalı, məlumatlar toplamalıdır. Təcrübəmdə olub ki, bəzən yanıma uşaq gətirirlər, uşaq artıq 3-cü sinifdə oxuyur, amma nə doğru-düzgün hərfləri, nə də rəngləri tanımır. Açığı, necə olur ki, ailədə belə bir qüsur yaranır, onu mən də anlamıram. Əslində, uşaq hətta ana bətnində də təlimlənir. Onun eşitdiyi səslər, musiqilər, ona müraciət olunan səslər və s. hər biri ciddi təsir alətləridir. Bir məqamı da vurğulayım ki, uşaqların ilk 7 ili analarla bağlıdır. Növbəti 7 il atalarla bağlıdır və uşaq hər iki dövrü normal yaşayıbsa, yəni "ana dövrü", "ata dövrü" yaxşı keçibsə, bu halda yeniyetməlik dövründə heç bir fəsadlar olmur".

Mütəxəssis vurğulayıb ki, valideynlər uşaqların həm "ana dövrü"nü, həm də "ata dövrü"nü normal yaşamasına xüsusi diqqət yetirməlidirlər: "Bu, bütün dünyada belədir və hər iki dövrü normal keçirən uşaqlar növbəti dövləri də problemsiz keçirirlər. Bəzən elə olur ki, müəyyən səbəblərdən uşaq "ana dövrü"nü yaxşı keçirə bilmir, məsələn, ana doğuş zamanı dünyasını dəyişir, ata nə etsə də, həmin boşluğu doldura bilmir. Bu halda neyləsək də o uşaqda psixoloji travma yaranacaq. Bəzən isə uşaqlar ilk 7 ili normal yaşayır, növbəti 7 illik dövrdə isə valideynlər boşanırlar. Bu halda "ata dövrü" olmadığından boşluq yaranır və həmin insan yeniyetməlik dövründə ciddi problemlər yaşayır. Yəni, uşaqların inkişafında, şəxsiyyət kimi formalaşmasında nə ana atanı, nə də ata ananı əvəz edə bilər.



**Aida Nəbiyeva,**
psixoloq

Hər ikisi bərabər rola malikdir. Bu rolu da valideynlər çalışmalıdırlar ki, layiqincə yerinə yetirsinlər. Tutaq ki, ailə bərabər oturub hansısa intellektual oyunu izləyir. Bu özü ailənin birlikdə zaman keçirməsi baxımından müsbət haldır. Bəzən görürsən ki, bütün ailə televiziyanın qarşısında oturur, oyunun gedişatında ata sualların əksəriyyətini cavablandırır, anadan isə səs çıxmır. Uşaq soruşur ki, ana niyə ata sualların çoxuna cavab verir, sən cavab verə bilmirsən? Ana uşağın sualını cavablandırmamış ata dərhal o tərəfdən müdaxilə edir və deyir ki, ananın başı nə gəzir o suallara cavab versin və s. kimi cümlələr işlədir. Təbii ki, bu durum uşaqlara psixoloji cəhətdən təsir göstərir. Biz unutmamalıyıq ki, uşaqlar həm fizioloji, həm də psixoloji olaraq ilk 7 illərini analarla bağlı olurlar. Növbəti 7 ildə isə uşaqların tərbiyəsində ataların rolu xüsusi çəkiyə malik olur. Bu dövrlərə diqqət edən ailələrin uşaqları da gələcəkdə sağlam düşüncəli, normal psixologiyaya malik olurlar".

> *"Əgər valideyn övladı ilə kobud danışırsa, uşaq da dostları ilə, ümumilikdə ətrafdakılarla söhbət edərkən həmin danışıq tərzindən istifadə edəcək*

■ **Məsələyə münasibət açıqlayan psixoloq Aida Nəbiyeva hesab edir ki, uşaq tərbiyəsində ilk növbədə psixoloji iqlimin sağlam olması vacibdir. Onun sözlərinə görə, uşağa qoyulan normalar mütləq əvvəldən müzakirə olunmalıdır ki, ata-ananın fikirləri üst-üstə düşsün:**

"Yəni ananın dediyi sözü ata inkar edərsə, bu zaman uşağın düzgün tərbiyəsindən söhbət gedə bilməz. Uşaqların nitqi, danışıq tərzi, söz ehtiyatı belə valideyn davranışı ilə birbaşa bağlıdır. Əgər valideyn övladı ilə kobud danışırsa, uşaq da dostları ilə, ümumilikdə ətrafdakılarla söhbət edərkən həmin danışıq tərzindən istifadə edəcək. Əlbəttə, bu da həmin uşaq haqqında xoş rəy yaratmayacaq. Yəni, valideynlər davranışları ilə övladlarına nümunə olmalıdırlar. Tutaq ki, ata övladına böyüklərə hörmət etməyi tövsiyə edir, amma o özü evdəkilərə və ya həyətdəki qocaya xoş münasibət göstərmir. Ətrafındakılara laqeyd olan bir valideynin övladına ədəb dərsi keçməsi mənasızdır. Uşaqların tərbiyəsində nənə və babanın rolu əvəzsizdir. Onların danışdıqları nağıllar uşağın düçüncələrinə, davranışlarına birbaşa təsir edir". Onun fikrincə, oğlan və qız tərbiyəsində, onların inkişaf ında elə də ciddi fərq qoyulmamalıdır:

"Uşaqlara qarşı ümumi davranışlar müəyyən yaş dövrünə qədər eyni olmalıdır. Böyüyəndən sonra cinsi tərbiyədə müxtəlif formada yanaşılmalıdır. Bizim ailələrdə qız və oğlan tərbiyəsində qəribə bir yanaşma var, oğlana hər şey olar, amma qıza yox. Nəticədə qızlar çəkingən, olur, oğlanlar isə istədiyini edə, istədiyi formada davranırlar. Bundan əvvəlki nəsli təhlil edərkən görürük ki, qızlar analarından, oğlanlar isə atalarından çəkinir. Ünsiyyət var, amma səmimiyyət yoxdur. Nə qədər ki, səmimiyyət, dostluq yoxdur, onlar arasında həmişə problem oalcaq. Nəticədə uşaq dərdini danışacağı başqa birini tapacaq və kim təminat ver bilər ki, həmin insan kifayət qədər güvənilirdir. Valideynlə dost olmayanlar xarici mühitə can atır, ailədən uzaqlaşır. Ev onlar üçün yalnız yemək, yatmaq, pul götürmək yeri olur. Biz bununla bağlı valideynlərə tövsiyə verəndə isə xüsusilə atalar deyir ki, mən övladımla dost ola bilmərəm, çünki bu zaman o mənə hörmət etməz".

Ekspert vurğulayır ki, istər qız, istər oğlan övladı olmasına baxmayaraq, valideynlər hər iki uşağa yetərincə diqqət ayırmalıdırlar: "Bəzi vərdişləri uşaqlara kiçik yaşlarından aşılamaq lazımdır. Tutaq ki, onlara tapşırıq verin. O da dərk etsin ki, ona nəsə tapşırılıb və bunu mütləq etməlidir və əvəzində o mükafat və ya alqış alacaq. Bağçaya getməyən uşaqlarda məsuliyyət hissi də az olur. Ən azından orada uşağa tapşırıqlar verilir, hətta hədiyyə alarkən də diqqətli olmalı və yenə də məsuliyyət unudulmamalıdır. Eyni zamanda, uşaqlara hər gün yeni hədiyyə almaq doğru deyil. Bir gəlincik, maşın alanda bir neçə ay ona imkan yaradın ki, o, oyuncağı dərk etsin. Digər bir vacib məqam isə onunla bağlıdır ki, Azərbaycan ailələrində ata işə gedən, pul qazanan, fikirlərinə qarşı heç bir söz deyilməyən, övladın birbaşa ünsiyyət qurmadığı bir şəxs kimi tanınır. Yəni, ailə üzvləri nə düşünür-düşünsün yalnız onun qərarı əsasdır. Övladın tərbiyəsinə birbaşa qarışmır, bütün məsuliyyət də ananın üzərinə düşür. Hansısa problem yaşananda o, sadəcə, günahı başqalarında axtarır, özü nə qədər məsuliyyət daşıyır bunu düşünmür. Bir sözlə, bizdə atalar məsuliyyətdən qaçır. Təkcə ana tərbiyəsi yetərli deyil. Hər bir valideyn bir psixoloq qədər bilikli olmalı və övladın inkişafında rol oynamalıdır".

***✍ Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

# Hər biri 15 il azadlıqdan məhrum edildi

**Casusluqda ittiham olunan ermənilər - Davtyan Davit Tiqrani və Sujyan Gevorg Rubenoviçin cinayət işi üzrə məhkəmə prosesi davam etdirilib. Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Əli Məmmədovun sədrliyi ilə keçirilən prosesdə şahidlər ifadə verib və iş üzrə olan sənədlər tədqiq edilib.**



Şahid qismində Vidadi Orucəliyev ifadə verib. O bildirib ki, "N" saylı hərbi hissədə xidmət edib. "11 noyabr 2020-ci ildə Şuşa istiqamətində xidmət aparırdıq. Bu zaman gördük ki, iki nəfər Şuşa istiqamətində mövqelərimizi müşahidə edir. Biz onları saxladıq, sorğu-sual etdik. Bildik ki, onlar Ermənistan vətəndaşlarıdır. Onlardan burada nə iş gördüklərini soruşduq. Bizə cavab verə bilmədilər. Biz onları müvafiq dövlət qurumlarına təhvil verdik".

Şahid qeyd edib ki, təqsirləndirilən şəxslər saxlanılarkən onlarda humanitar yardım aşkar olunmayıb: "Onların saxlandığı yerdən Xankəndi şəhərinə yol yox idi".

Dünən ifadə verməli olan digər şahid prosesdə iştirak etməyib. Həmin şahidlə bağlı Müdafiə Nazirliyin arayışı məhkəməyə daxil olub. Arayışda qeyd olunub ki, şahid qismində ifadə verməli olan zabit - polkovnik -leytenant Vüqar Abdullayev xüsusi tapşırıqla bağlı xidmətdə olduğundan yaxın müddətdə məhkəmədə iştirak edə bilməcəyək. Şahid istintaqa verdiyi ifadəni təsdiqlədiyini, məhkəmədə onun ifadəsinin elan olunmasını istəyib. Məhkəmə V. Abdullayevin istintaqa verdiyi ifadəsini elan edib.

Şahid istintaqa verdiyi ifadəsində bildirib ki, 11 noyabr 2020-ci ildə Şuşa şəhərində hərbçi yoldaşı Vidadi Orucəliyevlə xidmət aparan zaman iki nəfərin onların mövqelərini müşahidə etdikləri aşkar ediblər: "Biz onlara "dayan" əmri verdik. Onlar bizi başa düşmədilər. Onları sorğu-sual etdik, bizə rus dilində cavab verdilər. Şəxsiyyət vəsiqələri, pasportlarından aşkar etdik ki, onlar Ermənistan vətəndaşlarıdır. Onlardan burada nə iş gördüklərini soruşduq. Bizə cavab verə bilmədilər. Biz onları saxladıq, müvafiq dövlət qurumlarına təhvil verdik".

Bundan sonra prosesdə sənədlərin tədqiqi mərhələsinə keçirilib. Daha sonra Sujyan Gevorg Rubenoviç çıxış edək peşman olduğunu deyib: "Hamınızdan üzr istəyirik, xahiş edirəm məni bağışlayasınız".

Digər təqsirləndirilən Davtyan Davit Tiqran da üzr istəyib: "Nə etmişəmsə, Allah mənim cəzamı versin". Hakimlər məhkəmə istintaqının tamamlandığı elan ediblər. İttiham nitqi ilə çıxış etmək üçün prokurora söz verilib. Prosesdə prokuror çıxış edərək təqsirləndirilən şəxslərin hər birinə 16 il müddətinə azadlıqdan məhrum edilməsini istəyib. Prokuror həmçinin təqsirləndirilən şəxslərin cəzalarının başa çatandan sonra Azərbaycan hüdudlarından çıxarılmasını istəyib.

Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Əli Məmmədovun sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxslərin vəkilləri çıxış edib. Daha sonra təqsirləndirilən şəxslər son sözlə çıxış ediblər.

Onlar son sözlərində məhkəmədən bağışlanmalarını istəyiblər: "Məhkəmədə və istintaqda olan işçilərin hamısına təşəkkür edirik. Onlar bizə yaxşı münasibət göstərdilər".

Prosesdə hökm oxunub. Hökmə əsasən, Davtyan Davit Tiqrani və Sujyan Gevorg Rubenoviçin hər biri 15 il müddətinə azadlıqdan məhrum edilib. Hökmdə qeyd olunub ki, təqsirləndirilən şəxslər cəzalarını çəkib başa çatdırdıqdan sonra Azərbaycan hüdudlarından kənara çıxarılmalıdırlar.

***✍ Hafta.az***

## XƏBƏRİNİZ OLSUN...



■ Bu il ölkədə əcnəbilərə iş icazəsi üçün ayrılan kvota sayı açıqlanıb. Bu barədə Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Hüseynov məlumat verib. O qeyd edib ki, bu il əcnəbilərin iş icazəsi üçün ayrılan təsdiq edilmiş kvota 6740-dır: "Hazırda 3368 kvota işçi qüvvəsi üçün yer imkanları mövcuddur. Yəni şirkətlər iyuldan dekabra qədər bu qədər əcnəbi qüvvəsini ölkəyə gətirə bilər".

---

■ Bakıda şəhidin bank kartından 4 min manata yaxın pul oğurlayan şəxs saxlanılıb. İyulun 26-da polisə müraciət edən Göyçay rayon sakini Ş.Qafarova cari il fevral ayının 28-də oğlu, şəhid Kənan Qafarovun bank kartından 3960 manat pulun çıxarılaraq oğurlandığını bildirib. Oğurluq əməlini törətməkdə şübhəli bilinən Göyçay rayon sakini M.Qafarov müəyyən edilərək saxlanılıb. Araşdırma aparılır.

---

■ ABŞ-ın Texas ştatında "Lyondell-Basell" şirkətinin zavodunda kimyəvi maddənin sızması nəticəsində azı 2 nəfər ölüb, 4 nəfər yaralanıb. Bu barədə şirkətdən bildirilib. Hadisə şirkətin La Port şəhərindəki kompleksində baş verib. Xəsarət alanlara tibbi yardım göstərilir. Kimyəvi maddənin sızmasının qarşısı alınıb.

---



■ Bakıda bu gecə 24 yaşlı qadın yeni sintetik narkotik vasitədan ("patı"dan) dünyasını dəyişib. Bunu paytaxtın baş toksikoloqu, dosent İsmayıl Əfəndiyev deyib. O bildirib ki, dünyasını dəyişən qadın iki uşaq anası idi. İ.Əfəndiyev qeyd edib ki, son dövrlər ölkədə narkotik istifadəsinin strukturu dəyişib: "2010-cu illə müqayisədə keçən il üçün ölkədə psixostimulyatorların sayı 24%-ə çatıb. Bu göstərici 2010-cu ildə 0,9% təşkil edirdi".

---

■ Dünyanın aparıcı kriptovalyutası - bitkoinin qiyməti 40 min ABŞ dollarını keçib. Kriptovalyuta son 24 saat ərzində 7,2%, son 7 gün ərzində isə 27,3 bahalaşıb. Nəticədə onun kapitallaşması 748,3 milyard dollara çatıb. Kapitallaşmaya görə 2-ci pillədə qərarlaşan "Ethereum"un qiyməti isə son bir sutkada 3,4% artaraq 2 307 dollar olub. İlk onluqda qərarlaşan altkoinlərdən ən böyük artım isə "XPR"də olub.

---



■ "Mançester Yunayted" heyətinə yeni futbolçu qatıb. "Qırmızı şeytanlar" "Liverpul"un qapıçısı Etan Ennislə razılaşıb. Bu barədə 16 yaşlı qolkiper öz sosial şəbəkə hesablarında məlumat yayıb. Bu keçidin maraqlı tərəfi isə odur ki, "Mançester Yunayted" və "Liverpul" arasında 57 il sonra ilk birbaşa transfer reallaşıb. Son dəfə 1964-cü ildə Fil Çiznall "Mançester Yunayted"-dən "Liverpul"a keçib.

---

■ "Hər il dünyada 1,4 milyon adam hepatitdən vəfat edir". Bunu Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəisi Ceyhun Məmmədov bildirib. Onun sözlərinə görə, yer üzündə 290 milyondan çox adam hepatit olduğunu bilmədən yaşayır: "Hepatit çox bəşəri problemdir. Ölkəmizdə də hepatit problemi ilə bağlı kompleks addımlar atılır".

# Meyvə bazarı

## İqtisadiyyat



**Azərbaycan meyvəni daha çox hansı ölkələrdən alır?**

***Bu gün yerli bazarlarda alıcılara müxtəlif ölkələrdən idxal olunmuş meyvə məhsulları təklif olunur. Müşahidələr göstərir ki, Azərbaycan xaricdən təkcə subtropik və tropik meyvələr idxal etmir. İdxal olunan meyvə məhsulları sırasında yerli iqlim şəraitdə yetişdilən gilas, şaftalı, ərik, çiyələk, alma, armud və s. kimi meyvələrə də rast gəlinir. Məsələn, bu gün Gürcüstan bazarında bir kiloqramı 40-50 qəpiyə təklif edilən Gürcüstan şaftalısı Azərbaycan bazarında 1manat 80 qəpik və ya 2 manat 20 qəpiyə təklif olunur. Bölgələrdə 40 qəpiyə təklif olunan eyniadlı yerli məhsul isə iri supermarketlərdə 1 manat 20 qəpik və ya 1 manat 40 qəpiyə satılır.***

İrandan gətirilən super əriyin kiloqramı 6-7 manat arasında dəyişir. Hazırda bazarlarda yerli əriyə nadir hallarda rast gəlmək olar. Satıcılar bunu ərik mövsümünün başa çatması ilə əlaqələndirirlər.

Maraqlıdır, görəsən, bu gün Azərbaycan daha çox hansı ölkələrdən meyvə idxal olunur? İdxal meyvələrinə hansı mövsümlərdə daha çox rast gəlinir? Tropik meyvələrlə yanaşı, ölkənin iqlim şəraitinə uyğun olan meyvə məhsullarının xaricdən gətirilməsinə səbəb nədir? Xaricdən idxal olunan meyvələr ekoloji baxımdan sağlamdırmı?

■ **Məsələni hafta.az-a şərh edən kənd təsərrüfatı sahəsi üzrə ekspert**



**Vahid Məhərrəmov,**
kənd təsərrüfatı sahəsi üzrə ekspert

*"Azərbaycan meyvə - tərəvəz istehsalı sahəsində MDB ölkələri arasında ən son pillələrdədir*

**Vahid Məhərrəmov bildirib ki, ümumiyyətlə, Azərbaycan meyvə -tərəvəz istehsalı sahəsində MDB ölkələri arasında ən son pillələrdədir:**

"Açıq etiraf edək ki, bəzi ölkələrdə meyvə-tərəvəz istehsalı Azərbaycandan qat-qat ucuz başa gəlir. Məsələn, İranı götürək. Bu ölkədə meyvə-tərəvəz istehsalı çox ucuz başa gəlir. İranda dizel yanacağını kəndlilərə, fermerlərə bizim pulla 2 qəpiyə satırlar. Azərbaycanda isə dizel 80 qəpikdir, İrandan 40 dəfə bahadır.

Eyni zamanda, İranda istehsal olunan məhsulu soyuducu anbarlarda uzun müddət saxlamaq da çox ucuz başa gəlir. Dediyim kimi, bu ölkədə həm elektrik enerjisi, həm də dizel istehsalçılara olduqca güzəştli qiymətə təklif olunur. Beləliklə, həmin məhsullar heç bir kimyəvi maddədən istifadə edilmədən uzun müddət saxlanıla bilir və istənilən vaxt da bazara çıxarılır.

Monopolistlər İrandan məhsulu ucuz qiymətə alıb, burada dəfələrlə baha qiymətə təklif edirlər. Bilirlər ki, bizdə onsuz da yerli məhsul tələbatı ödəmir, həm də istehsal baha başa gəldiyindən istehsalçılar da istehsal prosesinə maraq göstərmirlər. Belə olan təqdirdə, monopolost qüvvələr öz qiymətlərini çox rahat şəkildə bazara diktə edə bilirlər".

Ekspert vurğulayıb ki, hazırda Azərbaycan təzə meyvəni daha çox İran, Türkiyə, Gürcustan, Çin və Afrika ölkələrindən alır: "Daha çox alma, armud, şaftalı, ərik, sitrus meyvələri, bəzi hallarda üzüm idxal olunur. Bir məqamı da vurğulayım ki, Azərbaycan son vaxtlar meyvə idxalını kəskin şəkildə artırıb. İxracımız azalıb, idxalımız çoxalıb. Bizim istehsal etdiyimiz məhsulun təəssüflər olsun ki, bir hissəsi zibilxanaya gedir. Bu onunla bağlıdır ki, bizdə məhsulun zamanında yığılması və həmin məhsulun soyuducu anbarlara yerləşdirilməsi, anbarlarda bir müddət saxlanılması prosesi vaxtlı-vaxtında aparılmır. Digər tərəfdən, bu proses çox baha başa gəlir. Mən başqa ölkələrdə də olmuşam, həmin ölkələrdə soyuducu anbarlar elə yerdə inşa olunur ki, hava isti olsa belə məhsulların saxlanılmasına təsir etmir. Bu məsələdə məhsulun yığılması, daşınması arasında məsafə çox önəmlidir. Digər bir məqam meyvənin yığım prosesidir. Bizdə fermerlərin əksəriyyəti meyvəni nə zaman yığmaq lazım olduğunu bilmir. Meyvə tam yetişməməlidir, bizdə onun tam yetişməyini gözləyirlər, tam yetişən meyvəni nəinki uzunmüddət, heç qısa müddətə saxlamaq olmur. Ona görə də yığımdan məhsulun soyuducu anbarlara yerləşdirilməsinə kimi olan dövr olduqca vacib sayılır.

Bizdə bu dövrə əhəmiyyət vermirlər. Meyvə bir mərhələdə yetişdi, həmin etapda da məhsul bazara daşınır, satılan satılır, satılmayan da zibilliyə gedir. Beləliklə, yerli meyvə sezonu bağlanır. Bu fürsətdən istifadə edən möhtəkirlər isə bazara öz qiymətlərini diktə edirlər. Bizdə bazarda normal qiymət siyasətinin olmasını istəyiriksə, monopoliyanı aradan götürməliyik. Bu halda rəqabət mühiti yaranacaq və hansısa situasiyadan "yararlanmaq" istəyən sahibkarın cəzası isə müflisləşmək olacaq".

■ **Məsələnin iqtisadi tərəflərinə aydınlıq gətirən iqtisadçı-ekspert Akif Nəsirli bu gün Azərbaycana ən müxtəlif ölkələrdən təzə meyvə məhsulları idxal olunur:** "Bu məhsullar arasında sitrus, tropik meyvələrlə yanaşı, Azərbaycanın iqlim şəraitində yetişən meyvələr də var. Sitrus və tropik meyvələrin idxalı başadüşüləndir. Çünki ölkəmizin iqlim şəraiti həmin məhsulları yetişdirməyə imkan vermir. Sual oluna bilər ki, Azərbaycanın iqlim şəraiti imkan verən məhsulları niyə idxal edirik? Səbəb olduqca sadədir, biz pomidor, xiyar, kartof, soğan, mövsümdə isə yemiş və qarpızdan başqa digər məhsullarda daxili tələbatı ödəyə bilmirik. Bu məhsullar üzrə də 80-90 faiz daxili tələbatı ödəmək imkanımız olur. Ona görə də bəzi məhsullar üzrə tələbatı 20 faiz, bəzi məhsullar üzrə 40-50 faiz xaricdən ödəmək məcburiyyətindəyik. Ümumilikdə, meyvə-tərəvəzə olan tələbatın 50 faizi xaricdən idxal hesabına qarşılanır. Amma bizə elə gəlir ki, yerli istehsalımız ola-ola məhsul idxal edirik. Lakin bir daha qeyd edirəm, məsələ burasındadır ki, bizim yerli istehsal kifayət qədər deyil. Məsələn, alma, armud, ərik, gilas istehsal edirik, amma kifayət qədər olmadığından xaricdən də alırıq. Ola bilər ki, alma yerli tələbatın 70-80 faizini qarşılasın. Amma ərik, şaftalı, gilas, armud tələbatı qarşılamır. Yerli istehsal tələbatı ödəsə, biz xaricdən çoxlu miqdarda məhsul da idxal etmərik".

Ekspert vurğulayıb ki, əgər ölkəyə mövcud tələbatın 20 faizi dəyərində məhsul idxal edilərsə, bu qiymətlərdə ciddi dəyişiklik yaratmır: "Qeyd etdiyim göstərici 50 faiz və ya daha yuxarı olanda qiymət artımı müşahidə olunur. Çünki idxal 50 faiz və daha çox olanda artıq qiymət diktə edir. Bizdə məhsulların baha olmasının bir səbəbi də xaricdən gələn məhsulun diktəsidir. İnhisarçılar öz qiymətlərini diktə edir, yerli istehsal da az olduğuna görə, məcburdur ki, həmin qiymətlərə uyğunlaşsın".



**Akif Nəsirli,**
iqtisadçı-ekspert

*"Biz pomidor, xiyar, kartof, soğan, mövsümdə isə yemiş və qarpızdan başqa digər məhsullarda daxili tələbatı ödəyə bilmirik*

■ **Mövzu ilə bağlı bizimlə fikirlərini bölüşən Qida Təhlükəsizliyi Agentliyi yanında İctimai Şuranın üzvü, "Azad İstehlakçılar" Birliyinin sədri Eyyub Hüseynov deyib ki, ölkəyə idxal olunan meyvə-tərəvəz məhsullarının ekoloji cəhətdən keyfiyyətli olub-olmamasına AQTA və Kənd Təsərrüfatı Nazirliyi birlikdə nəzarət edir:** "Xaricdən meyvə idxal olunması təbii bir prosesdir. Çünki Azərbaycan bazarı dünya bazarına inteqrasiya olunmuş bir bazardır. Eyni zamanda, bazar iqtisadiyyatıdır, tələb varsa, təklif də var. Məndə olan məlumata görə, Azərbaycan Çindən, İrandan, Afrika ölkələrindən və s. təzə meyvə gətirir. Amma qiymət məsələsində bazarda şişirdilmiş qiymətlər diktə edir. Məsələn, banan MDB ölkələri arasında ən baha Azərbaycanda satılır. Biz bunu dəfələrlə dilə gətirmişik və bildirmişik inhisarçılıq meylləri aradan qaldırılmalıdır. Bunu ölkə Prezidenti də dəfələrdə çıxışlarında dilə gətirib. Çox təəssüf ki, ölkədə nə Antiinhisar Məcəlləsi var, nə də digər məsələr həllini tapır, nədənsə. aidiyyəti qurumlar bu məsələyə biganə yanaşırlar".

*✍ Sevinc*

### Yeri gəlmişkən...

**Bu ilin ilk 5 ayı ərzində xarici ölkələrdən Azərbaycana 755 milyon 15,4 min dollar dəyərində yeyinti məhsulları gətirilib. Statistikaya görə, yanvar-may aylarında dəyər ifadəsində ən çox meyvə-tərəvəz, miqdar ifadəsində isə ən çox buğda idxal olunub.**

Belə ki, bu ilin ilk 5 ayında Azərbaycana xarici ölkələrdən 110,3 milyon dollar dəyərində 205,3 min ton meyvə-tərəvəz, 99,8 milyon dollar dəyərində 392,2 min ton buğda gətirilib. Nəticədə idxal olunan meyvə-tərəvəzin 1 kiloqramının gömrük dəyəri 53 sent (91 qəpik), buğdanın 1 kiloqramının gömrük dəyəri isə 25 sent (43 qəpik) olub. Ümumilikdə, 2021-ci ilin yanvar-may aylarında Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri tərəfindən 156 ölkədən məhsul idxal olunub. Ölkəyə idxal olunmuş məhsulların ümumi dəyərinin 17,5 faizi Rusiya, 15,0 faizi Türkiyə, 12,7 faizi Çin, 6,6 faizi Almaniya, 4,4 faizi ABŞ, 4,0 faizi Ukrayna, hər biri 3,5 faiz olmaqla İran və İtaliya, 2,7 faizi Birləşmiş Krallıq, hər biri 2,0 faiz olmaqla Koreya və Yaponiya, 1,7 faizi Fransa, 1,6 faizi Braziliya, 1,5 faizi Hindistan, 1,2 faizi Belarus, 20,1 faizi isə digər ölkələr ilə aparılmış idxal əməliyyatlarının payına düşüb. 2020-ci ilin yanvar-may ayları ilə müqayisədə 2021-ci ilin yanvar-may aylarında buğda idxalı 14,7 faiz, xam şəkər və şəkər - 0,8 faiz, kartof - 14,7 faiz, çay - 6,7 faiz, təzə tərəvəz - 46,5 faiz, təzə meyvə - 1,4 faiz azalıb.

## Sahibkar

***Bu gün ölkəmiz ərzaq və kənd təsərrüfatı məhsullarının istehsalı və inkişafını qeyri-neft sektorunun inkişafı baxımından strateji hədəf kimi götürüb. Bu istiqamətdə təhlillər aparan iqtisadçı mütəxəssislər dünyanın inkişaf etmiş ölkələri ilə müqayisədə kənd təsərrüfanın ən məhsuldar və tələbat sahələrindən biri kimi, meyvə və tərəvəzçiliyə diqqət yetirilməsinin üstünlüklərini önə çəkir. Araşdırmalar onu göstərir ki, inkişaf etmiş ölkələrlə müqayisədə Azərbaycanda meyvə-tərəvəzçiliyə yetərli qədər diqqət ayrılmadığı üçün bu sahədə boşluqlar var. Azərbaycanda bu sahədə də xeyli işlərin görüldüyünü istisna etməyən bir çox iqtisadçı ekspertlər məhz kənd təsərrüfatında meyvə və tərəvəzçiliyin inkişafına da strateji sahə olaraq xüsusi diqqətin ayrılmasını məqsədəuyğun hesab edir. Son vaxtlar əhali tez bar verən ağac tinglərini də geni dəyişdirilmiş elementlər sırasına daxil edir. Əhali fəslə uyğun yetişməyən meyvəni qeyri-normal hesab edir. İstixanalarda yetişdirilən meyvə tingləri ilə bağlı şübhəlidir, narahatdır.***



**Mürvət Həsənov,**
iqtisadçı, istixanalar üzrə meyvə-tərəvəz istehsalı üzrə ixtisaslaşan mütəxəssis

# Xaricdən gətirilən tinglər daha məhsuldardır

Bu istiqamətdə yaranan bir çox suallar ətrafında hafta.az-a müsahibə verən iqtisadçı, istixanalar üzrə meyvə-tərəvəz istehsalı üzrə ixtisaslaşan mütəxəssis Mürvət Həsənov maraqlı nüanslara diqqət çəkib.

***- Mürvət bəy, Azərbaycanda meyvə bağlarının salınması, inkişafı, məhsulların istehsalı, keyfiyyəti, satışı və buna istehlakçı marağının səviyyəsi barədə nələri söyləmək olar?***

- Ölkə başçısının qəbul etdiyi strateji yol xəritəsinə uyğun olaraq aqrar sektorun inkişaf etdirilməsində meyvə bağlarının salınması strateji hədəf kimi götürülüb. 2016-cı ildə qəbul edilmiş yol xəritəsinə əsasən 2025-ci ilə qədər biz bu hədəfə çatmalıyıq. Mənə elə gəlir ki, ölkəmiz meyvəçilikdə, tərəvəzçilikdə başqa respublikalara, özəlliklə də MDB ölklələrinə nisbətən öndə gedir. Eləcə də Özbəkistan və Gürcüstan da meyvəçilikdə irəliləyir. Bir iqtisadçı kimi deyə bilərəm ki, meyvəçiliyin inkişafı ölkəyə böyük valyuta axınının təşkili deməkdir. Azərbaycan bu istiqamətdə xüsusilə irəliləyir. Məlumdur ki, bir müddət Rusiya bazarında alma, pomidor satışına qadağa qoyuldu. Müəyyən qadağadan sonra hazırda pomidorun, almanın satışına icazə verildi. Ona görə də ötən ilə nisbətən bu il alma və pomidorun ixracı 30 faiz azalıb. Biz keçən il Rusiyaya 272 min ton pomidor ixrac eləmişdik, bu da hardasa Rusiya bazarının ixrac potensialının 52 faizini təşkil edir. Müqayisə üçün qeyd edim ki, bu bazarda Özbəkistan 32 faiz, Türkiyə 9 faiz yer tuturdu. Bu il Azərbaycanda ixrac edilən bu məhsullar müəyyən qadağalara görə bir qədər azaldı. Lakin keçən il hətta bu il üçün biz meyvə ixracında Rusiya bazarında öz liderliyimizi qoruyuruq. Bizim meyvələrin orqanikliyi Rusiya bazarında həm də ona gətirib çıxardır ki, baha qiymətə satılır. Əsasən gilas, şaftalı, üzüm və başqa meyvələrin ixracı ilə məşğuluq. Üzü payıza doğru almanın, narın ixracı daha çox olacaq və düşünürəm ki, öz liderliyimizi Rusiya bazarında qoruyacağıq. Hazırkı dövrdə Rusiyaya pomidor ixracımız var. Artıq avqustdan sonra havalar soyuyacaq və bizim pomidor ixracımız güclənəcək.

*"İstər istixanalarda, istər sahələrdə yetişdirilən meyvələrin keyfiyyət fərqi yoxdur*

***- Kənd təsərrüfatında meyvəçiliyin inkişafı deyəndə meyvə-tərəvəzlər ərzaq çatışmazlığını nə dərəcədə ödəyə bilir?***

- İstənilən halda meyvə-tərəvəzçilik immunitet qaldıran orqanik məhsul kimi götürülür və insanların sağlamlığını qoruyur. Biz sovet dövründə də dənli bitkilərə o qədər önəm verməmişik. Respublikada 30-35 faiz dənli bitkilərin istehsalı olanda 65 faizə qədər meyvəçiliyə önəm vermişik. Ona görə ki, bizim torpaqlar daha münbitdir, meyvəçiliyə daha adekvatdır, bol məhsul verir. Bir iqtisadçı kimi deyə bilərəm ki, biz daha çox meyvə-tərəvəz istehsalına fikir verməliyik ki, onun ixracından ölkəyə daha böyük gəlir, valyuta gətirə bilək. Sovet dövründə biz 30-35 faiz dənli bitkilər istehsal edirdiksə, indi 60-65 faizə qalxıb. Ətçilik sovet dövründə 30 faiz idisə, müstəqillik dövründə 83-87 faizə, südçülük 90 faizə qalxıb. Bu iqtisadi inkişaf, əhalinin ərzaq tələbatının ödənilməsi baxımından müsbət haldır. Meyvə-tərəvəzdə olan rentabellik daha çoxdur. Rentabellik daha çox olduğuna görə, ölkəyə daha çox valyuta gətirə bilərik. Hazırda bu istiqamətdə uğurlarımız var.

***- Sizin istixanalarda meyvə ağaclarının yetişdirilməsi üzrə müəyyən təcrübəniz və uğurlarınız var. Eləcə də istixanalarda xaricdən Azərbaycana gətirilən tez bar verən ağac tingləri də yetişdirilir. İstərdim bu barədə fikirlərinizi bildirəsiz?***

- Azərbaycanda istixanalarda ilk faraş meyvə bağlarını bizim şirkət salıb. Qeyd edim ki, ümumiyyətlə hardasa mart-may aylarına yaxın respublikamıza 5000 tona yaxın xaricdən meyvə gətirilir. Ölkədə fəaliyyət göstərən bir neçə şirkət istixanalarda faraş meyvə bağları salandan sonra özümüz 1000 tona yaxın Rusiyaya və başqa ölkələrə meyvə ixrac edirik. Bununla da həm ölkədən valyuta çıxışının qarşısını almışıq, həm də ölkəyə az miqdarda da olsa, valyuta gətiririk. Bu, həm də may ayında İrandan, Türkiyədən və başqa ölkələrdən gələn meyvələrin qarşısını alacaq. Bu mənada qeyd etdiyim kimi, aqrar sektorun meyvə-tərəvəz sahəsinə daha çox diqqət yetirməliyik. Eləcə də intensiv bağçılığı inkişaf etdirməliyik.

Bilirsiniz ki, ölkə başçısının tapşırığı, kənd təsərrüfatı nazirinin diqqəti ilə bu il limon, portağal, nar bağlarında 4 və 11 min manat civarında hektara görə subsidiya verir. Bu subsidiya həmin sahənin təşviqinə kömək üçün nəzərdə tutulur. Yəni 11 min manat bir hektara subsidiya o deməkdir ki, limon, portağal, zeytun, badam, nar bağlarının salınmasında daha böyük inkişaf olacaq. Ümumiyyətlə, aqrar sektorda belə bir müqayisə aparanda düşünürəm ki, bu subsidiyalar da azdır. Təsəvvür edin, istehsal olunan kənd təsərrüfatı məhsulunun 3,7 faizə qədəri subsidiyaya verilir. Yəni bu gün biz 6 milyardlıq kənd təsərrüfatı məhsulları istehsal ediriksə, onun 3,7 faizə qədəri subsidiyalı idi. İsraildə və ya başqa inkişaf etmiş ölkələrdə 70 faizə qədər subsidiya verirlər. Təbiidir ki, onlarda 6 milyardlıq məhsul istehsal olunmur. Bu dövlətlər keçən il 102 milyard avroluq məhsul ixrac etmişdi. Bu gün İsrail aqrar sektorda 4-cüdür. Onun aqrar sektorda 100 milyard avroya yaxın ixracı var idi ki, onun 70 faizə qədəri subsidiyalar hesabına olur.

***- Bəs Azərbaycanda kənd təsərrüfatı məhsullarına subsidiyaların ayrılması niyə azlıq təşkil edir?***

- Biz gənc respublikayıq. Qəbul olunan strateji yol xəritəsinin 2025-ci ilə qədər olan proqramına əsasən düşünürəm ki, artım silsilə olaraq davam edəcək.

***- Xaricdən gətirilən tez bar verən tinglər yerli ağac tinglərinin becərilməsinə, satılmasına nə cür təsir göstərir?***

- Azərbaycanda son dövrlər İspaniyadan, İtaliyadan seleksiyası daha çox, soyuğa davamlı, daha çox soyuğu qəbul edən meyvə ağacları gətirilir. Yəni ağacbaşı 30-40 kilo, 60 kilo, bəzən 10 kiloya kimi meyvə verən tinglərin hamısını gətiririk, becəririk. Biz o tingləri gətirib meyvəçilikdə onlardan istifadə edirik. Ümumilikdə isə tingçilik çox maraqlı bir sahədir. Bu, əsasən Avropa ölkələrində və Amerikada daha çox inkişaf edib və onlar daha çox genetik seleksiyaya diqqət yetirirlər. Əsasən də tinglərin soyuğa davamlılığına, çox bar verməsinə, ikinci ilində məhsul verməsinə diqqət yetirilir. Bu istiqamətdə ən yaxşı nəticə verən meyvə ağaclarının tinglərini Azərbaycana gətiririk ki, daha çox inkişaf edək.

***- Bizim yerli tinglər rəqabətə nə dərəcədə dzümlüdür?***

- Yerli tinglərimiz rəqabətə davamlı deyil. İstənilən tingin sortunu alanda düşünürük ki, bu nə zaman bar verəcək?! Əgər yerli əriklər iyul ayının sonlarında çıxırsa, istixanalarda aprelin sonunda, mayın əvvəlində çıxır. Həmin ağacları sahələrdə əksək, o da mayın 20-25-i arasında çıxır. Yəni istixanalarda yetişdirilən meyvələr daha tez bazara çıxır. Daha rentabelli olur. İlk olaraq bu cəhətə, daha sonra məhsuldarlığa, zərərvericilərə, viruslara, xəstəliklərə qarşı dözümlülüyünə fikir verilir.

***- Bəzən belə fikirlər səslənir ki, iki ilə bar verən ağac necə ola bilər?***

- İstər istixanalarda, istər sahələrdə yetişdirilən meyvələrin keyfiyyət fərqi yoxdur. İkisi də eyni torpaqda, eyni suda böyüyür. Ona başqa qidalandırıcı maddə verilmir. Bu daha keyfiyyətlidir, daha təmizdir, daha dözümlüdür. Bu, elmin inkişafıdır. Burda başqa bir səbəb yoxdur. Daha tez bar verən ağaclarla, məhsuldarlığı olan ağacların kökünün calağından söz gedir.

***- Mürvət bəy, dünyada qida təhlükəsizliyi ilə bağlı vahimə doğuran məqamlardan biri də genetik modifikasiya olunmuş (GMO) məhsulların istehsalı, satışı və istehlakıdır. Bir çox hallarda belə qidalar əhalidə narahatlıq yaradır. Bəs, görəsən tez bar verən ağacların GMO ilə əlaqəsi varmı?***

- Heç bir ağacın genini dəyişmək mümkün deyil. Bu meyvələrin GMO məhsullarla əlaqəsi yoxdur. Bu, soya deyil, qarğıdalı, yaxud başqa meyvələr deyil. Bu, ağacdır. Tutaq ki, alma ağacını götürüb daha bol məhsulu olan ağacla, virusa davamlı kökün üzərində calayırlar. Onun geni dəyişmir, alma almadır.

Almanı yığandan sonra onu saxlamaq üçün üzərinə hansı maddələr vururlar, o ayrı şeydir. Düşünürəm ki, seleksiya olunmuş məhsullarla genetik modifikasiya olunmuş məhsulları bir-biri ilə qarışdırmaq lazım deyil. Bu gün dünyada 28 ölkənin ümumilikdə 170 milyon hektar ərazisində GMO məhsullar becərilir. GMO məhsullarının becərildiyi əkin sahələrinin ölçüsünə görə isə bu gün ABŞ dünyaya liderlik edir. Məlumata görə, ABŞ-ın 70.9 milyon hektar sahəlik ərazisi GMO məhsullarının becərilməsinə ayrılıb.

Hazırda geni dəyişdirilmiş bitkilər və digər məhsullar istehsal edən böyük dövlətlər - ABŞ, Çin, Yaponiya və digərləri arasında iqtisadi və biotəhlükəsizlik maraqlarının toqquşması zəminində münaqişələr yaranıb. ABŞ 2017-ci ildə Çinə 14 milyard dollarlıq soya məhsulu satıb. Məlumata görə, ABŞ transgen bitkilərin ixracından 73 milyard dollar gəlir əldə edir. Bu onu göstərir ki, GMO məhsulların istehsalı bəzi ölkələr üçün əsas gəlir mənbəyi olduğundan onların maraqlarına xidmət edir. Elə GMO növlərinə görə də ABŞ Yaponiya ilə birgə digər dünya ölkələrinə liderlik edir. Məlumata görə, Yaponiyada 334, ABŞ-da isə 203 GMO növü mövcuddur.

"Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi haqqında" qanuna görə Azərbaycan Respublikasının ərazisinə genetik modifikasiya olunmuş bitkilərin genetik materiallarının gətirilməsi, rayonlaşdırılması və dövlət reyestrinə daxil edilməsi qadağan edilir.

*✍ Tahirə Qafarlı*

# "Bərpa işlərinə dəstək vermək istəyirəm"

## Diaspora



**Vasif Kazımov,**
Dobryanka şəhərində Azərbaycan cəmiyyətinin sədri

**44** ***günlük Vətən müharibəsi dövründə həm Azərbaycanda, həm də hüdudlarımızdan kənarda yaşayan soydaşlarımız Prezident, Ali Baş Komandan İlham Əliyevin Dəmir Yumruğu ətrafında bir vücud kimi birləşdi. Müharibə başa çatıb və azad edilmiş ərazilərimizdə bərpa işlərinə start verilib. Bəs bu prosesdə xaricdə yaşayan iş adamlarımızın iştirakı nə dərəcədə təmin edilir? Onların marağı hansı səviyyədədir? Bu və digər məsələlərlə bağlı hafta.az-ın suallarını Rusiyanın Perm vilayətində fəaliyyət göstərən iş adamı, ictimai fəal, Dobryanka şəhərində Azərbaycan cəmiyyətinin sədri Vasif Kazımov cavablandırıb. Maraqlı söhbət alınıb. Buyurun,siz də oxuyun:***

### Dosye

***Vasif Oruc oğlu Kazımov. Rusiyanın Perm vilayətində fəaliyyət göstərən iş adamı, ictimai fəal, Dobryanka şəhərində Azərbaycan cəmiyyətinin sədri. 1967-ci ildə Zəngilan rayonunun 2-ci Ağalı kəndində anadan olub. Orta məktəbi bu kənddə bitirib. 1985-1987-ci illərdə Arxangelskdə həqiqi hərbi xidmətdə olub. 1988-1994-cü illərdə İnşaat Mühəndisləri İnstitutunun avtomobil yolları fakültəsində ali təhsil alıb. 2021-ci ildə Perm şəhərində Dövlət Aqrar Texnoloji Universitetinin menecment fakültəsini qırmızı diplomla bitirib. 1995-ci ildən Perm vilayətində yaşayır. Hazırda orada iş adamı kimi fəaliyyətini davam etdirir. 2010-cu ildən yaşadığı şəhərdə Azərbaycan Cəmiyyətinə sədrlik edir. Dobryanka şəhərində 2013-2018-ci il üçüncü çağırış, 2018-ci ildə isə 4-cü çağırış parlamentin üzvü seçilib. Hazırda Perm vilayətində həm iş adamı, həm də ictimai xadim kimi fəaliyyətini davam etdirir.***

***- Vasif müəllim, Vətən Müharibəsi dövründə Rusiyada yaşayan iş adamlarımızın, soydaşlarımızın dəstəyi nə dərəcədə hiss edildi?***

- Mən bu məsələdə ən böyük yeri mənəvi dəstəyə verərdim. Müharibə zamanı Azərbaycanın daxilində yaşayan vətəndaşlarımızdan başqa, kənarda məskunlaşan azərbaycanlılar onlardan da çox bu işdə maraqlı idilər. Gecə səhərə qədər xəbərləri izləyir, yaşayış məntəqələrimizin azad edilməsi ilə bağlı məlumatları səbirsizliklə gözləyirdik. Hər dəfə bu cür xəbərləri eşidəndə bir-birimizi təbrik edir, Azərbaycandakı yaxınlarımıza zəng vurub sevincimizi onlarla da bölüşürdük. Təbii ki, mənəvi dəstəkdən başqa maddi yardımlar da edilib. Sağ olsun xalqımız. Möhtərəm Prezidentimizin də vurğuladığı kimi, Vətən Müharibəsi zamanı xalqımız Dmir Yumruq kimi bir oldu.

***- Artıq müharibə başa çatıb və işğaldan azad edilmiş ərazilərdə böyük quruculuq işlərinə start verilib. Dövlətin bu istiqamətdə atdığı addımları necə dəyərləndirirsiz?***

- Çox yüksək qiymətləndirirəm. Həm sosisal şəbəkələr, həm televiziya kanalları vasitəsi ilə bu işləri yaxından izləyirəm.

***- Prezident çıxışlarında xaricdə yaşayan iş adamlarımızı bərpa işlərinə dəstək verməyə səsləyib. Bu gün məlum çağırışa Rusiyadakı iş adamlarımızın reaksiyası hansı səviyyədədir?***

- Bu reaksiyanı qaneedici hesab etmək olar. Mən özüm həmin iş adamlarından biri olaraq, quruculuq işlərində kömək göstərməyə hazır olduğumu bildirmək üçün müvafiq orqanlara ərizə ilə müraciət etmişəm. Həmçinin nazirliklə əlaqə saxlayıb maliyyə yardımı edə biləcəyimi də söyləmişəm. Müraciətimdə işğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatının inkişafına hərtərəfli dəstək göstərə biləcəyimi qeyd etmişəm. Bu sahəni daha yaxşı bilirəm. Mütəxəssis olduğum üçün bütün bilik və bacarıqlarımla işğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatının dirçəldilməsinə yardım etməyə hazıram.

***- Bəs müraciətinizə nə cavab verildi?***

- Müraciətə 2 dəfə cavab gəldi. Deyildi ki, "Gözləyin, 1 ay ərzində sizə məlumat veriləcək". Sonra həmin nömrələrə özüm zəng etsəm də, qeyri-müəyyən səbəbdən cavab ala bilməmişəm. Artıq üstündən 5 ay keçib, hələ ki gözləyirik.

***- Özünüzün də doğulub boya-başa çatdığınız Zəngilan rayonu Ağalı kəndində "ağıllı kənd" layihəsi icra edilir. Elə həm siz özünüz, həm də başqa iş adamları tərəfindən bu cür layihələr hazırlanıb təqdim edilirmi?***

- Bəli, mən nazirliklə əlaqə saxladım. Sonra onlar mənə cavab verəndə "Biznes plan lazımdırmı?" deyə soruşdum. Cavab belə oldu ki, "Yazdığınız müraciətdə hər şey aydın göstərilib, inşallah sizi kənarda saxlamarıq".

***- Diaspor komitəsi ilə münasibətləriniz necədir? Problemləri qaldırmaq üçün onların xətti ilə də müvafiq qurumlarla əlaqə yarada bilirsinizmi?***

- Əlbəttə, biz bunu da elə bilərik. Mənə elə gəlir ki, ilk növbədə müvafiq orqanların göstərişləri üzrə hərəkət etsək daha doğru olar. Əsas plan onların əlindədir.

***- Bu gün işğaldan azad edilmiş ərazilərin bərpa prosesində ən böyük maneələrdən biri mina xəritələrinin olduğu göstərilir. Bu məsələ Rusiya siyasi xadimləri qarşısında qaldırılırmı? Reaksiyaları hansı formada olur? Məcburi köçkün iş adamı olaraq bu məsələyə ən maraqlı olan tərəflərdən biri elə sizsiniz.***

- Əlbəttə, biz bu məsələnin müsbət həllində çox maraqlıyıq. Gücümüz çatan qədər məsələni ictimailəşdirməyə çalışırıq. Ancaq siz özünüz də bilirsiniz, biz hələ elə yüksək mərtəbəyə qalxa bilməmişik ki, kimlərəsə göstəriş verək.

***- Səbəb nədir?***

- Səbəb odur ki, bu, dövlətlərarası siyasi məsələdir.

***- Ölkədə bir müddət əvvəl diaspor komitəsi tərəfindən YAŞAT Fonduna maliyyə dəstəyi marafonu keçirildi. Rusiyada yaşayan iş adamlarımız bu işə dəstəklərini nə cür göstərdilər?***

- Həmin marafonlarda biz də iştirak edirik. Perm vilayətindən gələn yardımlardan, yəqin ki, sizin də xəbəriniz var. Tək biz yox, Azərbaycan xalqının adını yaşadan hər kəs dəstək göstərdi və buna davam edirlər.

***- Doğulub böyüdüyünüz Ağalı kəndinə getməklə bağlı müraciətlər etmisiz?***

- Bəli.

***- Nə cavab verildi?***

- Mən həmin vaxt Azərbaycanda idim. Ərizəmlə müraciət etdim ki, Ağalı kəndindən qaçqın kimi çıxmışam. Baxmayaraq ki, həmin vaxt Bakıda ali təhsil alırdım. Lakin qeydiyyatım Ağalıdadır. Hələ ki təkcə siyahıya alınmışıq, başqa xəbər yoxdur.

***- Vasif müəllim, istərdim ki, bir az da Rusiyada yaşayan soydaşlarımızın fəaliyyəti haqqında danışaq. Sizlərə ermənilər, yaxud da başqa kimlərsə tərəfdən maneələr var? Bilirik ki, orada erməni iş adamları heç də az deyil. Bütün bu münasibətlər nə cür tənzimlənir?***

- Bəlkə də hansısa siyasi addımlar atılır, ancaq bunu açıq şəkildə həyata keçirmirlər. Nə seçkilərdə, nə də ictimai yığıncaqlarda bu cür söhbətlərlə qarşılaşmamışam. Bəzən xırda-para söz-söhbətlər olur. Fikrimcə, buna əhəmiyyət verməyə dəyməz. Biz öz sözümüzü cənab Prezidentin rəhbərliyi ilə 44 günlük müharibə zamanı dedik. Allah bütün şəhidlərimizə rəhmət etsin, qazilərimizə cansağlığı versin. Biz Dəmir Yumruğun gücünü göstərdik. Mən bir qədər millətpərəstəm. Bir azərbaycanlı kimi hər zaman haqqı çatdırmağa çalışmışam. Xalqımızın mədəniyyətini dünyada tanıtmağa səy göstərmişəm. Bunu da deyim ki, 2014-cü ildə bir müsahibə vermişdim. O vaxt da demişdim ki, bu 1-2 günün işi deyil. Prezidentimiz siyasi arenada öz sözünü deyən siyasətçilərdən biridir.

> *Cavabdeh qurumlardan da xahişim o olardı ki, abadlaşdırma işlərinə dəstək olmaq istəyənlərə müvafiq şərait yaradılsın*

2009-cu ildə Azərbaycanda ova çıxmışdım. Böyük qardaşım demişdi ki, "İlham Əliyevin rəhbərlik etdiyi dövrü, illər keçdikdən sonra xalqımız "qızıl dövr" adlandıracaq". Bu fikirlərin öz yerini necə tapdığı göz önündədir. Yəni bütün xalq torpaq həsrəti çəkirdi. Möhtərəm Prezidentin düzgün siyasəti ilə məsələ öz həllini tapdı. Xalqımıza müraciət edirəm ki, bundan sonra da bir-birimizlə sıx əlaqələr quraq.

Torpaqlarımızın abadlaşdırılması üçün hamı bacardığını etməlidir. Cavabdeh qurumlardan da xahişim o olardı ki, abadlaşdırma işlərinə dəstək olmaq istəyənlərə müvafiq şərait yaradılsın. Son vaxtlar belə bir dəb düşüb. Kimin nə problemi oldu, Prezidentə üz tutur, ona müraciət edir. O, tək bir nəfərdir. Vaxtı da çatmaz hamının problemini tək başına həll etsin. Qurumlar bu işlə ciddi məşğul olmalıdırlar.

***- Çağırışınızdan sonra belə bir sualım yarandı: bəlkə elə Rusiyada yaşayan iş adamları nümayəndə heyəti formalaşdıraraq müvafiq qurumlarla ölkəmizdə görüşlər təşkil etsinlər?***

- Bu məsələni ölkəmizin müvafiq orqanları bir çağırış və dəvət şəklində həyata keçirsələr, daha məqsədəuyğun olar. Bu, daha effektli nəticə verər.

***✍ Azad Əliyev***







# "Ağdam Çörək Muzeyini daha möhtəşəm formada bərpa edəcəyik"

## Qarabağ

***"Nəhayət, 28 ildən sonra - mayın 29-da doğma Ağdamımızın viranələrinə ayaq basa bildim. 38 il öncə əsasını qoyduğumuz Çörək Muzeyinin uçuq divarlarını da gördüm. ATV kanalında bu barədə ayrıca veriliş yayımlandı. İşğal altındakı yurdlarına dönən hər kəs kimi, mən də çox həyəcanlı, kövrək qarışıq hisslər keçirdim. Bunu söz ilə ifadə etmək mümkün deyil".***

Bunu hafta.az-a açıqlamasında hazırda Azərbaycan Yaradıcılıq Fondunun Qarabağ filialının rəhbəri olan 14 il Ağdam rayon mədəniyyət şöbəsinin müdiri kimi çalışmış, dünyada ikinci, SSRİ-də birinci çörək muzeyinin yaradıcısı, respublikanın əməkdar mədəniyyət işçisi, sabiq millət vəkili Çimnaz xanım Əliyeva söyləyib. "Ömrünün əsas hissəsini yaşadığın şəhərin xarabalıqlarını görəndə bilmirsən ki, sevinirsən, yoxsa kədərlənirsən, amma eyni zamanda qürurlanırsan. Əsas odur. Ağdam, bildiyiniz kimi, yerlə-yeksandır. Ağdam yoxdur, demək olar ki. Bütün hallarda doğma şəhərimizin xarabalıqları da mənim üçün çox gözəl idi. Böyük bir təəssüratla döndüm o səfərdən.

Ağdam viranələrində keçirdiyim o bir gün mənə, sanki onillik enerji verdi. Çörək Muzeyinin divarları durur. İnşAllah, cənab Prezidentin təsdiqləmiş olduğu Ağdamın Baş planı əsasında bu nadir muzeyi daha möhtəşəm formada bərpa edəcəyik..."İmarət" deyilən məkanda tarixi şəxsiyyətlərimizin bəzi məqbərələri də salamat qalıb. Onları da, Ağdam məscidinin yarıuçuq binasını da ziyarət etdik. Ağdam Dövlət Dram Teatrının fasadı qalıb. Sonra möhtərəm Prezidentin təməlini qoyduğu obyektlərin inşası ilə tanış olduq.

Məzunu olduğum Ağdam şəhər 1 nömrəli orta məktəbin yeni binasının təməlini gördük. Şahbulaq qalasında Pənahəli xanın sarayını gəzdik. Qiyaslı kəndindəki məscidin yarıuçuq tikilisini ziyarət etdik. Getdiyimiz hər məkan erməni vandalları tərəfindən viran qotulmasıa rəğmən çox əziz, çox doğma idi.

İnşallah, layihələrdən də gördük ki, çox gözəl yeni bir Ağdam qurulacaqdır. Düzdür, artıq bizim uşaqlığımızın, gəncliyimizin Ağdamı olmayacaq, ancaq yeni yetişən nəslin Ağdamı olacaq. Güman edirəm ki, yeni Ağdam əvvəlkindən də gözəl olacaq... Torpağa yaraşıq verən onun insanlarıdır. Təbii ki, insanlar o yurda qayıdandan sonra Ağdam öz Ağdamlığını bir daha göstərəcəkdir, inşAllah", - həmsöhbətimiz bildirir.

"Ağdamdakı doğma evinizin də uçuqlarını görə bildinizmi?" sualını isə Çimnaz Əliyeva belə cavablandırdı:

"Atam evi Ağdam məscidinin arxa tərəfində olub. Ora keçmək çox çətin idi. Ancaq mənimlə bərabər gedən oğlum gedib tapdı öz doğma babasının evini. Onun da uşaqlığının bir hissəsi o evdə keçib. Təbii ki, evimizin yalnız uçuq divarları qalıb, hətta ağaclar da qalmayıb. Təsəvvür edirsiniz, anamın əkdiyi zanbaqların kökü kəsilməyib, qalıb. Bu, bizi çox sevindirdi. Adama elə təsir bağışladı ki, o güllər bizi gözləyirmiş...".

28 illik ayrılıqdan sonra doğma Ağdamının xarabalıqları ilə ilk görüşünün təssüratlarından danışan sabiq deputat doğma şəhərinin 1993-cü ilin bugünündəki işğalının dəhşətlərini də xatırlatdı.

> *Doğma şəhərimin viranələrində keçirdiyim o bir gün mənə, sanki onillik enerji verdi*

"Ağdam 5 ilə yaxın davamlı olaraq müdafiə olundu. 1993-cü ilin yayında vəziyyət lap ağır idi. Təsəvvür edin, şəhərə "qrad" yağırdı, gündə azı, 10-15 dinc sakin həlak olurdu. Mən kabinetimdə əyləşib işləyirdim, deyirdim ki, mənə güllə dəyməz.

İki dəfə sürücüm məni düşürüb gedəndə xidməti avtomobilimə "qrad" qəlpəsi dəymişdi. Yəni biz son imkanadək şəhəri tərk etmirdik, oğullarımız da bacardıqları qədər döyüşürdülər. Təəssüf ki, sonda həm düşmənlərimizin məkrli planları, həm də xəyanət nəticəsində Ağdam işğal edildi...

Həyat yoldaşım da həmin döyüşlər zamanı qəlpə yarası almışdı. 2010-cu ildə, yəqin, artıq ürəyi dözmədi Ağdamsızlığa, qəflətən ürəyi dayandı. İnşAllah, Allah hamımıza - bütün didərginlərə öz torpaqlarımıza dönüb orada yaşamaq-yaratmağı nəsib etsin", - deyə Əməkdar mədəniyyət xadimi açıqlamasını xeyir-dua ilə bitirdi...

***✍ Sultan***



**■ "Müsəlman ölkələri regional böhranların həll olunmasında və terrorizm ilə mübarizədə Rusiyanın köməyinə arxalana bilər".**

Bu barədə Rusiya Prezidenti Vladimir Putin "Rusiya - İslam dünyası" XII Beynəlxalq İqtisadi Sammit iştirakçılarına ünvanladığı məktubda bildirib. "Qeyd etmək istərdim ki, tərəfdaşlarımız regional böhranların və kəskin sosial problemlərin, bütün terrorizm və ekstremizm hallarının aradan qaldırılması səylərində Rusiya Federasiyasının dəstəyinə və birgə fəaliyyətinə arxalana bilər", - deyə Putin sözlərinə əlavə edib. Məktubda, həmçinin qeyd olunur ki, Rusiya və müsəlman ölkələri arasında münasibətlər ənənəvi olaraq dostluq və konstruktiv xarakter daşıyır.



**■ Bakı Dövlət Universitetinin rektor müşavirinin bıçaqlanma səbəbi məlum olub. "Qafqazinfo"-nun əldə etdiyi məlumata görə, müşavir Mirzə Mirzəyevi bıçaqlayan İsmixan Mirzəyev universitetdə suvaqçı-rəngsaz işləyirmiş.**

Dünən müşavir onu öz kabinetinə çağıraraq artıq işdən çıxarıldığını bildirib. Bundan əsəbiləşən İ.Mirzəyev müşavir stolunun üstündəki meyvə bıçağını götürərək onu bıçaqlayıb. Bu zaman səs-küyə gələn komendant Şahlar Bəgalıyev otağa daxil olub və İsmixan Mirzəyev onu da bıçaqlayıb. Hazırda müşavir Mirzə Mirzəyev xəstəxanada müalicə olunur. İsmixan Mirzəyev isə tutularaq istintaqa cəlb edilib. O, Cinayət Məcəlləsinin 126-ci (qəsdən sağlamlığa ağır zərər vurma) maddəsi ilə ittiham edilir.



**■ Ukraynanın birinci prezidenti, ürək əməliyyatı keçirdikdən sonra artıq bir aydır reanimasiyada yerləşdirilən Leonid Kravçukun sağlıq durumu pisləşib.**

Hafta.az Ukraynanın "1+1" telekanalına istinadla xəbər verir ki, Leonid Kravçuk ağ ciyərin süni tənəffüs aparatına qoşulub və hazırda sərbəst nəfəs ala bilmir. Siyasətçinin ailəsi xəstəxananın həkimlərinə onun səhhəti ilə bağlı şərhlər verməyi qadağan edib. Dörd il əvvəl - 2017-ci ilin mayında Ürək İnstitutunda Kravçukun damarlarında stentləşdirmə aparılmışdı. Ukrayna KİV-in məlumatına görə, 2021-ci il iyunun 29-da o, uğurlu ürək əməliyyatı keçirmişdi. Səksən yeddi yaşlı Leonid Kravçuk 2020-ci il iyulun 28-dən Ukraynanın şərqində vəziyyətin nizamlanması üzrə Təmas Qrupunda ölkəsinin nümayəndə heyətinə rəhbərlik edir.



**■ Əfqanıstan Müdafiə Nazirliyi son sutka ərzində "Taliban" hərəkatının 189 döyüşçüsünün öldürüldüyünü, 138-nin isə yaralandığını bildirib.**

Hafta.az Əfqanıstan Müdafiə Nazirliyinin "Twitter" səhifəsinə istinadla xəbər verir ki, ölkənin təhlükəsizlik qüvvələri Qəndəhar, Zabul, Herat, Cauzcan və Hilmənd əyalətlərində uğurlu əməliyyatlar keçirib. Əməliyyatlar nəticəsində, həmçinin 32 əldəqayırma partlayıcı qurğu aşkarlanaraq zərərsizləşdirilib. Bu ərəfədə NATO-nun Baş katibi Yens Stoltenberq Əfqanıstan Prezidenti Əşrəf Qəni ilə telefon danışığında alyans tərəfindən hərbçilərin hazırlığı və maliyyə yardımı yolu ilə rəsmi Kabilə dəstəyin davam edəcəyini bildirib.



**■ Keçmiş Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayevin səhhətində yaranan problemə görə xaricə getmək istəyərkən Heydər Əliyev adına Beynəlxalq Hava Limanından geri qaytarılması barədə məlumatlar yayılıb.**

Hafta.az xəbər verir ki, modern.az informasiyanın doğru olub-olmadığını dəqiqləşdirmək üçün sabiq nazirin özü ilə əlaqə saxlayıb. O, haqqında yayılan xəbəri yalanlayıb. "Mənim bu hadisədən xəbərim yoxdur. Sonuncu dəfə hava limanında keçən ilin fevral ayında olmuşam. Həmin vaxt səfərimi yerinə yetirib Azərbaycana qayıtmışam. Bu il ümumiyyətlə hava limanına daxil olmamışam". Xatırladaq ki, Əbülfəs Qarayev 21 may 2020-ci il tarixində Prezident İlham Əliyevin sərəncamı ilə Mədəniyyət naziri vəzifəsindən azad edilib.



**■ Yaponiyanın ev sahibliyi etdiyi 2020-ci il Tokio Olimpiadasında boks qarşılaşması zamanı maraqlı hadisə yaşanıb. Mərakeşli Youness Baalla Yeni Zellandlı rəqibi David Nyikanın qulağını dişləməyə çalışıb.**

Hafta.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, Mərakeşli boksçu Baalla matçın üçüncü və son raundunda rəqibi Nyikanın qulağını dişləməyə cəhd edib. Nyika son anda fiziki zərər görmədən özünü xilas etməyi bacarıb. Qeyd edək ki, buna oxşar hadisə 1997-ci ildə ABŞ boksçuları arasında da yaşanıb. Nyu York şəhərindəki Madison Square Garden-da oynanan ağır çəkidə çempionluq görüşündə Tyson rəqibi Holyfield-in qulağını dişlədiyi üçün mübarizədən kənarlaşdırılıb.

Təhlükə

# Hündürmərtəbəli binalarda yanğınlar

**_Son bir neçə aydır, paytaxt Bakıda çoxmərtəbəli binalarda yanğın hadisələri ilə tez-tez qarşılaşırıq. Təəssüflər olsun, yanan tək binaların konstruksiyası və mənzillər olmur, həmçinin sakinlərin ölümü və ağır bədən xəsarətləri ilə baş verir. Bəs görəsən, səbəblər nədir, ehtiyatsızlıq, yoxsa məsuliyyətsizlik? Bu kimi neqativ hallardan necə sığortalana bilərik? Məsələ ilə bağlı hafta.az-a danışan yanğın təhlükəsizliyi eksperti Anar Malikov söylədi ki, yanğınlar müxtəlif səbəblərdən qaynaqlansa da, əksəriyyəti elektrik təsərrüfatında qeydə alınır:_**





**Anar Malikov,**
yanğın təhlükəsizliyi eksperti

“Yaz-yay mövsümündə insanların məişət qayğıları daha da çoxalır. Havaların temperaturu artdığından, ilk növbədə, mənzillərin, iş yerlərinin havalandırılması və soyudulması məsələsi gündəmə gəlir. Son illər respublikamızın iri şəhərlərində əksər yaşayış binaları mərkəzləşdirilmiş mübadiləli havalandırma sistemi ilə təchiz olunub, lakin bütün binalarda belə deyil. Ona görə də bəzi yaşayış binalarında, xüsusən fərdi evlərdə mənzillərin soyudulması üçün elektriklə işləyən, kondisioner və ventilyatorlardan istifadə edilir. Payızqış mövsümündə isə havalar soyuduğundan, ilk növbədə, mənzillərin, iş yerlərinin isidilməsi kimi məsələlər aktual olur. Elektrik təsərrüfatında yanğınlar əsasən üç səbəbdən - artıq yüklənmə, qısaqapanma və yüksək keçirici müqavimətdən baş verir”.

Ekspertin fikrincə, bəzi sakinlər yaşayış evlərində elektrik xətlərinin çəkilişi zamanı elektrotexniki norma və qaydaların tələblərini pozurlar. Belə ki, həmin işləri mütəxəssis elektriklər deyil, özləri çəkir və ya digər insanlara həvalə edirlər. Bu işlərin sahəni bilməyən şəxslərə həvalə edilməsi isə düzgün deyil:

“Elektrik xətlərinin yanar konstruksiyalar üzərində çəkilməsinə, qoruyucu və avtomatların düzgün olmayan yerlərə bərkidilməsi xətlərdə baş vermiş hər hansı qəza zamanı yanğınlarla nəticələnir.

Mənzillərin təmiri zamanı sakinlər otaqların dizayn və strukturunu yeniləyən zaman həm elektrik, həm də qaz sistemlərinə dəyişikliklər etməli olurlar. Süni yollarla sistemlər çəkdikləri üçün böyük yanğınlara gətirib çıxarır”. Yanğınların baş verməsinə başqa səbəb isə qaz sızması göstərilir. Böyük fəsadlarla nəticələnən qaz sızması halları adi səhvlərə yol verildikdə meydana gəlir:

“Bir çox yaşayış evlərində təbii və maye qazla işləyən müxtəlif cihazlardan istifadə olunur. Məişətdə işləyən qaz cihazları səbəbindən baş verən yanğınların əsas səbəbi boru kəmərləri ilə bağlıdır.

Belə ki, boru kəmərinin birləşmə yerlərində kiplik pozulur, qaz cihazına qoşulma zamanı qeyri-standart rezin və digər materiallardan istifadə edilir. Statistika göstərir ki, mayeləşdirilmiş qaz təbii qazdan daha təhlükəlidir. Qaz balonları qızdırıcı cihazlardan, ən azı, bir metr kənarda yerləşdirilməlidir. Belə balonları qızdırmaq, zirzəmidə saxlamaq qəti qadağandır. Mənzillərdə qaz sızmalarına gəldikdə isə bunu hiss etdiyiniz an ümumi qaz kranını bağlamalısınız. Mənzilin havasını təmizləmək üçün qapı-pəncərələri açmaq lazımdır”.

Yanmaya gətirib çıxaran amillər bunlarla da bitmir. A.Malikovun sözlərinə görə, vətəndaşlar, soyuducular istisna olmaqla, bəzi məişət avadanlıqlarını elektrik şəbəkəsinə qoşulu halda qoyaraq evdən çıxırlar. Bəzi cihazların nəzarətsiz qalması yanğını körükləyən başlıca amil olur:

“Otaqdan və evdən çıxarkən elektrik cihazları şəbəkədən ayrılmalıdır. Yadda saxlamaq lazımdır ki, suqızdırıcı cihazlar nəzarətsiz qaldıqda yanğın təhlükəsi yaradır. Cərəyana qoşulmuş elektrik çayniki və ya samovar belə uzun müddət nəzarət etmədikə yanğına səbəb ola bilər. Su qaynayıb buxarlandıqdan sonra çaynikin və ya samovarın dibində hərarət 300-500 dərəcəyə çatır. Bu da elektrik yüklənməsinə və ya qısaqapanmaya gətirib çıxarır, sonda yanğının baş verməsi üçün kifayət edir”.

> “
>
> *Mənzildə yanğın üçün ən münbit şərait mətbəx və eyvanlardadır*

Söhbət yanğından - oddan düşübsə, onun mənzillərdəki qaynağı olan mətbəxlərdən söz açmamaq olmazdı. Həmsöhbətimiz deyir ki, mənzildə yanğın üçün ən münbit şərait mətbəx və eyvanlardadır:

“Mənzillərdə yanğın, adətən, mətbəxdə baş verdiyindən, belə demək olar: mətbəxdə və eyvanda tezalışan maddə və mayelərin saxlanması qəti qadağandır. Bəzən yuxarı mərtəbələrdən aşağıya atılan siqaret kötüyü küləklə sizin eyvana düşə bilir. Bu kimi ehtiyatsızlıqlar nəticəsində eyvanda saxlanılan maddə və mayelər alışa bilər.

Mətbəx və balkonları lüzumsuz əşyalarla doldurmayın. Bu, xüsusilə tezalışan maddə və mayelərə, eləcə də taxta mebel və şkaflara, ümumiyyətlə, alışa bilən hər bir materiala aiddir. Mətbəxdə baş vermiş bəzi yanğınlar isti qazan və tavaların içərisindəki yağın alışmasından da yaranar. Yağ alışıbsa, dərhal qazı və ya elektrik enerjisini kəsin, qazanı (tavanı) qapaqla və ya yaş parça ilə örtün. Yağın, eləcə də qazanın (tavanın) soyumasını gözləmək lazımdır. Əks halda, yağ yenidən yanmağa başlaya bilər. Qaynar yağ, piy alışaraq divar və ya döşəməyə düşübsə, onları söndürmək üçün yuyucu tozdan və ya tozlu odsöndürəndən istifadə edin. Spirallı elektrik plitəsi həddən artıq qızdıqda, onu cərəyandan ayırın və spiralı nəm parça ilə örtərək soyumasını gözləmək lazımdır. Ümumiləşdirsək, yaşayış binalarındakı, mənzillərdəki yanğınlar bir qayda olaraq, siqaret çəkmə, açıq yanğın mənbələrinin istifadəsi və s. zamanı ehtiyatsızlıq, laqeyd yanaşma nəticəsində, nasazlıq, habelə elektrik məişət istilik cihazlarının, mənzildaxili elektrik təsərrüfatının işinin pozulması səbəbindən baş verir”.

Son olaraq yanğın təhlükəsizliyi üzrə ekspert yanğın zamanı əməl olunması vacib bir neçə məqama toxundu. İlk olaraq nəzərinizə çatdıraq ki, hadisə baş verən an panikaya düşmək olmaz:

“Hər bir vətəndaş yanğının və ya yanmanın əlamətlərini (məsələn, alov, tüstü, yanıq qoxusu və s.) aşkar etdikdə dərhal telefonla “112” qaynar xəttinə məlumat verilməlidir. Məlumat verilən zaman vətəndaş yanğının baş vermə ünvanını, həmçinin öz ad-soyadını da deməlidir. Yanğınsöndürən bölmələri əraziyə gələnə qədər vətəndaşlar yanğını öz imkanları ilə söndürməyə çalışmalı, qapı və pəncərələri bağlamalı, mümkündürsə, elektrik və qaz cihazlarını söndürməlidir. Ağız və burunu nəm parça ilə bağlamaq, yanğın gücləndikdə vacib əşyaları götürüb dərhal bayıra çıxmaq lazımdır.

Qapı arasındakı boşluqları nəm əski ilə tutaraq, tüstünün mənzilə yayılmasının qarşısını almaq olar. Nəfəsalmanı təmin etmək məqsədilə əyilərək və ya sürünərək hərəkət etmək olar. Mənzildən çıxmaq mümkün deyilsə, eyvanda və ya pəncərənin yanında kömək gözləmək lazımdır. Bəzən insanlar panika ilə pəncərədən aşağı tullanmağa cəhd edirlər. Tövsiyələr odur ki, insanlar həm özlərinin, həm də digərlərinin sağlamlığı üçün yanğın təhlükəsizliyi normalarını bilməli və əməl etməlidir. Yanğının əsasları və onunla mübarizə haqqında təlimlər keçməlidir (yaşayış binalarında mənzil istismar idarəsi tərəfindən, digər binalara SƏTƏM idarəsi tərəfindən).

Yanğın zamanı yaşayış mərkəzlərinin insanları təxliyə üçün toplanma məntəqələri, yanğınların söndürülməsi üçün ərazidə yanğın idarələri, təcili yardım və yanğınsöndürmə maşınları üçün yollar nəzərdə tutulmalıdır. Binaların tikintisi zamanı yanğın və zəlzələ halları üçün çökmə və temperatur normaları nəzərdə tutulmalıdır. “Od olmayan yerdən tüstü çıxmaz”, - deyirlər. Elə isə siz də yuxarıda sadalanan qaydalara ciddi əməl edin ki, sonradan həyatınızı riskə atacaq hallarla qarşılaşmayasınız.

✍ **_Banu_**

Hüquq

**Təəssüflər olsun ki, hazırda azyaşlıların əməyinin istismarı, onlara qarşı fiziki zorakılıq halları gün-gündən artmaqda davam edir. Məsələ ilə bağlı çoxlu sayda qanun qəbul edilib, maarifləndirmə işləri aparılsa da, belə problemlərin tamamilə qarşısını almaq mümkün deyil. Elə Baş Prokurorluğun əhaliyə müraciətində də son zamanlar ölkəmizdə azyaşlılara qarşı zorakılığın artdığı deyilir. Həmçinin vətəndaşlardan uşaqlara qarşı fiziki, psixi və sair zor tətbiq edilməsi hallarının şahidi olduqları halda, dərhal bu barədə “961” nömrəli Çağrı Mərkəzinə zəng edərək məlumat vermələri xahiş olunur.**

# Şiddətə məruz qalan uşaqlar



Bəs görəsən, belə neqativ halların qarşısını almaq üçün daha hansı addımları atmaq lazımdır? Bunun üçün qanunvericilikdə yeni dəyişikliyə zərurət varmı?

■ **Məsələ ilə bağlı hafta.az-a danışan Azərbaycan Uşaqlar Birliyinin sədri Kəmalə Ağazadə təəssüf hissi ilə söylədi ki, belə halların artmasına özü ən yaxşı şahiddir:**

“Ümumiyyətlə, uşaqlara qarşı edilən bütün zorakılıq halları şiddət dərəcəsindən asılı olmayaraq, mənim üçün eyni ağırlıqdadır. Bu dəqiqə gözümün önündə bir ay ərzində müraciət edilərək polis tərəfindən yerləşdirilən 4 şiddətə uğramış uşaq var. Ən böyüyü 5 yaşlı Cahiddir. O, hal-hazırda xəstəxanada müalicə alır. Digər uşaqlar isə 4, 2 və 1 yaşlarındadır. Bu, faciə deyilmi?”. Sədrin sözlərinə görə, azyaşlılara qarşı diləndirilmə, psixoloji şiddət və başqa fiziki zorakılıq halları var. O, çıxış yolunu, ilk növbədə, erkən nikahlarla bağlı cəzaların sərtləşdirilməsində görür:

> “
>
> *Bu dəqiqə gözümün önündə bir ay ərzində müraciət edilərək polis tərəfindən yerləşdirilən 4 şiddətə uğramış uşaq var*
>
> *Ölkəmizdə uşaq hüquqları haqqında kifayət qədər qanunvericilik bazası mövcuddur*



**Kəmalə Ağazadə,**
Azərbaycan Uşaqlar Birliyinin sədri



**Turan Abdullazadə,**
vəkil

“İlk olaraq, qanunvericilikdə erkən nikahlarla bağlı dəyişiklik edilməlidir. Bununla bağlı qanunlar sərtləşdirilməli, valideyn məsuliyyətinin artırılması cəza metoduna çevrilməlidir. Problemin həlli istiqamətində yolu mən bu cür görürəm”.

■ **Məsələnin qanunvericilik tərəfinə münasibət bildirən vəkil Turan Abdullazadə isə hesab edir ki, ölkəmizdə uşaq hüquqları haqqında kifayət qədər qanunvericilik bazası mövcuddur.** Buna Azərbaycan Respublikasının Konstitusiyasını, mülki, cinayət, ailə məcəllələrini, “Uşaq hüquqları haqqında” Azərbaycan Respublikası Qanununu, “Uşaq Hüquqları haqqında” Konvensiyanı və sair qanunvericilik aktlarını misal çəkmək olar. Bu səbəbdən də hüquq eksperti qanunvericilikdə dəyişikliyə ehtiyac görmür: “Azərbaycan Respublikasının Konstitusiyasına əsasən uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarət edir. Analıq, atalıq, uşaqlıq qanunla mühafizə edilir. Cinayət qanunvericiliyinə əsasən cinayətin təqsirkar üçün aşkar surətdə hamilə vəziyyətində olan qadın, habelə azyaşlı, qoca və ya köməksiz vəziyyətdə olan və ya təqsirkardan asılı vəziyyətdə olan şəxsə qarşı törədilməsi cinayti ağırlaşdıran hallardan biridir.

Düşünürəm ki, uşaqlara qarşı zorakılığın artması ilə bağlı problemin həlli üçün qanunvericiliyə dəyişiklik əsas prioritet addım deyil. Tarix boyu ağır cəza siyasəti yürüdən dövlətlərin təcrübəsinə nəzər saldıqda cinayətlərin say statistikası bizə onu göstərir ki, cəzaların ağırlaşdırılması cinayətlərin və qanun pozuntularının sayını azaltmır”. T.Abdullazadə çıxış yolunu düzgün və genişmiqyaslı maarifləndirmə tədbirlərində görür.

“Hesab edirəm ki, uşaqlara qarşı zorakılığın qarşısının alınması üçün təhsil müəssisələrində ibtidai sinif səviyyəsindən şagird və valideynləri ilə maarifləndirmə işləri aparılmalıdır. Xüsusilə uşaqlara qarşı zorakılığın çox olduğu rayon-kənd yerlərində müvafiq səlahiyyəti olan dövlət orqanları və qeyri hökümət təşkilatları tərəfindən tərəfindən uşaqlar və valideynlər üçün təlimlər, treninqlər, müxtəlif tədbirlər təşkil olunmalı, uşaqlara qarşı zoraklığın qarşısını ala biləcək profilaktik və preventiv metodların təbliğatı artırılmalı, ictimai qınaq gücləndirilməli və sosial platforma ( sosial şəbəkələr vasitəsilə maarifləndirmə, TV proqramlar, nümunəvi video çəkilişlər) kimi vasitələrdən geniş və məqsədyönlü istifadə olunmalıdır”.

Erkən nikahlarla bağlı problemə gəldikdə isə vəkil qanunvericilikdə dolayı da olsa, erkən nikaha girən şəxslərin cinayət məsuliyyətinə cəlb olunması ilə bağlı müddəanın olduğunu söylədi: “Belə ki, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 152.1-ci maddəsinə əsasən on altı yaşına çatmayan şəxslə cinsi əlaqədə olma və ya seksual xarakterli digər hərəkətlər etmə - üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Həmin Məcəllənin 152.2. maddəsinə əsasən eyni əməllər on dörd yaşına çatmayan şəxs barəsində törədildikdə - üç ildən altı ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Göründüyü kimi 16 yaşına çatmamış şəxslə nikaha daxil olmaq məsuliyyətə səbəb olur. Təəsüflər olsun ki, bəzən valideynlər 16 yaşına çatmayan uşaqlarını “ərə” verirlər. Bu kimi halların çox vaxt üstü açılmır. Dövlət orqanlarında bu barədə məlumat olmur. Əsasən regionlarda bu cür mənfi tendensiyalar müşahidə olunur. Rayon-kənd yerlərində sosial təminat və işsizliklə bağlı problemlər olduğundan valideynlər qız uşaqlarına “artıq yük” kimi baxır. Məhz bu səbəbdən regionlarda maarifləndirmə işlərinin artırılması, təhsil keyfiyyətinin və iqtisadi rifahın yüksəldilməsi zəruridir”.

✍ **_Banu_**


## “Nar+” tətbiqi ilə abunəçilər balanslarını avtomatik artıra biləcəklər

R




**Abunəçilərə öz hesabını daha asan idarə etməyə imkan verən “Nar+” tətbiqi istifadəçilərin gündəlik həyatlarına rahatlıq və çeviklik gətirmək məqsədilə yenilənməkdədir.**

Artıq balansı artırmaq üçün “Nar” abunəçiləri kart məlumatlarını tətbiqin yaddaşında saxlaya biləcəklər. Eyni zamanda, son yüklənən məbləğ tətbiqin yaddaşında qaldığından sadəcə bir kliklə balansı sürətlə artırmaq olar. Bundan başqa, “Avtomatik ödəniş” hissəsinə daxil olub, günlük, həftəlik və aylıq bölmələrdən birini seçməklə balansın avtomatik artırılmasını təyin etmək olar. Beləliklə, abunəçinin balansı artırması üçün hər dəfə kart məlumatlarını və məbləği daxil etməsinə ehtiyac qalmır.

Qeyd edək ki, “Nar+” tətbiqi abunəçilərə Çağrı Mərkəzinə müraciət etmədən bir çox mühüm əməliyyatları yerinə yetirməyə imkan verir. Tətbiq vasitəsilə bir neçə saniyə ərzində yeni internet paketini sifariş etmək, tariflər haqqında məlumat əldə edib, ən uyğun tarifə qoşulmaq, mövcud tarifi dəyişmək, hesab üzrə izahlı qaimə əldə etmək, eyni zamanda, vahid platforma üzərindən 5-dək hesaba nəzarət etmək mümkündür.

“Nar+” tətbiqini AppStore və PlayStore-dan yükləmək mümkündür. Tətbiq haqqında daha ətraflı məlumatı https://www.-nar.az/plus/ səhifəsindən əldə etmək olar.



## ADA-nın “Yay düşərgəsi” “Azercell”də!

R

**Ənənəvi olaraq ADA Universiteti tərəfindən yay mövsümü ərzində ölkənin müxtəlif orta məktəblərinin şagirdləri üçün təşkil olunan “Yay düşərgəsi” proqramı bu dəfə “İnformasiya Texnologiyaları həftəsi” çərçivəsində “Azercell Telekom” MMC-yə səfər etdi.**

Məktəblilər ilk olaraq ən böyük Azercell Müştəri Xidmətləri Mərkəzində (Bəsti Bağırova küçəsi, 2) qonaq olub, ön masa arxasında Azercell əməkdaşlarının işini canlı olaraq izləyiblər. Onlar Azercell-də müştəriyə xidmət mədəniyyəti, müştəri məmnuniyyətinin əsasları, ön masa əməkdaşlarının abunəçilərin suallarını cavablandırması prosesi ilə bilavasitə tanış olublar.

Daha sonra Azercell şirkətinin baş ofisini ziyarət edən düşərgə iştirakçılarına şəbəkə texnologiyaları ilə bağlı məlumatlar verilib. Azercell-in ekspertləri tərəfindən mobil texnologiyaların növbəti inkişaf meylləri, əşyaların interneti, ümumilikdə İKT sahəsinin perspektivləri haqqında təqdimatlar keçirilib. Təqdimatlardan sonra məktəblilər üçün viktorinalar təşkil edilib və Azercell tərəfindən hədiyyələr təqdim olunub.



Qeyd edək ki, Azercell şirkəti uzun illərdir ADA Universiteti ilə müxtəlif sahələrdə əməkdaşlıq edir. Şirkət ADA-nın təşkil etdiyi startap yarışmalarının tərəfdaşı qismində çıxış edərək karyera sərgilərində iştirak edib, universitetdə təhsil alan bir qrup xüsusi istedadlı tələbələrə təqaüd ayırmaqla onların fərdi və peşəkar inkişafına dəstək olub.

Azərbaycanda təhsil və maariflənmənin inkişafına, o cümlədən informasiya və kommunikasiya texnologiyaları sahəsində mütəxəssislərin yetişdirilməsinə böyük önəm verən Azercell, həm də, istedadlı şagirdlərin informatika üzrə beynəlxalq olimpiadalarda iştirakını dəstəkləyir. Şirkət xüsusi qayğıya ehtiyacı olan 1000-dən çox uşağa “Busuu” dilöyrənmə tətbiqi üçün pulsuz kodlar və nömrələr təqdim edib. Bundan əlavə, Azercell şirkəti paytaxt və regionlarda “İnternet təhlükəsizliyi və rəqəmsal vətəndaşlıq” mövzusunda şagird, müəllim və valideynlər üçün təlimlər də təşkil edib.

# Marketlərdə satılan dovğalar

## Menyu

**Bütün fəsillərdə sevilən və ləzzətlə içilən milli yeməklərimizdən biri də dovğadır. Çoxları tərəfindən içki olaraq qəbul edilən dovğanın insan orqanizminə xeyirləri heç də az deyil. Tərkibində olan qatıq yüksək xolesterol və şəkər xəstələri üçün olduqca faydalıdır. Pis xolesterolu aşağı salır, yaxşı xolesterolu yüksəldir və yağların əriməsini asanlaşdırıb kökəlmənin qarşısını alır. Təsadüfi deyil ki, arıqlamaq istəyən şəxslərə mütəxəssislər tərəfindən dovğa məsləhət görülür.**




Bölgələrimizə görə hazırlanma qaydası və qatılan inqridiyentlərinin fərqliliyi, "Naxçıvan dovğası", "Gəncə dovğası" kimi çeşidlərini də formalaşdırıb.

Yay aylarında sərinlədici xüsusiyyəti, qışda isə əksinə, isti içilə bilməsi ilboyu dovğanın populyarlığını qoruyan ən əsas amildir. Faydalarını sadaladıq, lakin dovğanın bilinməyən ziyanları da var. Belə ki, o mədə-bağırsaq sistemində bir sıra problemlərə yol açıb, köp yaradır.

Hazırda marketlərdə müxtəlif firmaların dovğaları satılmaqdadır. Satıcılar bütün fəsillərdə dovğaya tələbatın olduğunu söyləyirlər. Qablaşdırılmış bu hazır məhsulların saxlama müddəti aylarla ölçülür ki, bu, ağıllarda bir sual yaradır. Axı evdə hazırlanan dovğanın ömrü bu qədər uzun olmur. Bəs görəsən, mütəxəssislər bu məsələdə hansı fikirdədirlər? Sağlam dovğa evdə hazırlanandır, yoxsa marketdə satılan?

> "Dovğanı çiy ayrandan hazırlamaq ən sağlam üsuldur



**Ağa Salamov,**
qida texnoloqu

Məsələ ilə bağlı hafta.az-a danışan qida texnoloqu Ağa Salamov söylədi ki, çoxları ev şəraitində belə düzgün dovğa hazırlamağın qaydasını bilmir. Sən demə, dovğanı "çiy ayran"dan hazırlamaq ən sağlam üsuldur: "Dovğa bişirilmiş qatıqdan hazırlanır. Bu hal isə sağlamlıq baxımından heç də yaxşı deyildir. Dədə-baba qaydası ilə götürsək, onda dovğalar nehrə çalxanıb, yağ əldə edilən zaman alınan ayrandan hazırlanmalıdır. Məlum məsələdir ki, indi bu ayranı tapmaq asan məsələ deyil. Həmin ayran çiy olduğundan, onu bir dəfə bişirib dovğa əldə etmək mümkündür. Bu, sağlam dovğa sayılır. Marketlərdə satılan dovğalara qıcqırmanın qarşısını almaq, ömrünü uzatmaq üçün qatqı maddələri vurulur". Mütəxəssis oxucularımıza alternativ yay içkisi olan, atlamanı, başqa adla desək, doğramacı məsləhət gördü:

"Tövsiyə edərdim ki, evdə hazırlanıb istehlak edilsin. Ən yaxşısı isə odur ki, göyərti və ayrandan istifadə edilərək doğramac, atlama hazırlansın. Bu, dovğadan qat-qat daha faydalıdır. Həm bitki, həm də qatıq bişirildikdə tərkibindəki vitamin və mineralları itirmiş olur".

Dovğanın hazırlanma qaydasına gəldikdə isə qida texnoloqunun sözlərinə görə, ana maddələri qatıq, düyü və göyərtidən ibarət olan bu yeməyi daha sağlam hala gətirmək heç də mümkünsüz deyil.

"Əgər kimsə çiy göyərtidən atlama hazırlamaq istəmirsə və məhz bişmiş istəyirsə, bu zaman göyərtini qaynar suya salıb-çıxarıb, anındaca buzun üstünə qoya bilərlər. Həmin göyərtini də soyuduqdan sonra qatığa əlavə etmək olar. Bu zaman göyərti tərkibində olan faydalı elementləri itirmir".

Ümidvarıq ki, bu dəfə də sizləri faydalı məlumatlar ilə tanış etdik. Çalışın, özünüzün və sevdiklərinin sağlamlığını qorumaq, damağınızı dadlandırmaq üçün mütəxəssislərin fikirlərini nəzərə alasınız.

✍ Banu

# Müslüm Maqomayevin və Tofiq Quliyevin heykəllərinin qoyulacağı yer müəyyənləşib

**Dünya şöhrətli vokalçı Müslüm Maqomayevin və görkəmli bəstəkar Tofiq Quliyevin Bakı şəhərində heykəllərinin qoyulacağı yer müəyyənləşib. Hafta.az Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə hər iki sənətkarın abidəsinin ucaldılması ilə bağlı tədbirlərin həyata keçirilməsi Mədəniyyət Nazirliyinə və Bakı Şəhər İcra Hakimiyyətinə tapşırılıb.**



"Müslüm Maqomayevin abidəsinin ucaldılması haqqında" ölkə başçısının 12 mart 2020-ci il tarixli Sərəncamının icrası məqsədilə Mədəniyyət Nazirliyinin sifarişi əsasında hazırlanan heykəlin Dənizkənarı Milli Parkın ərazisində, dəniz tərəfdən Dövlət Kukla Teatrının yaxınlığında ayrılmış yerdə ucaldılması nəzərdə tutulur. Abidənin müəllifi Xalq rəssamı, heykəltəraş Ömər Eldarovdur. Hazırda heykəlin son tamamlama işləri aparılır. "Tofiq Quliyevin abidəsinin ucaldılması haqqında" Azərbaycan Prezidentinin 20 may 2021-ci il tarixli Sərəncamının icrası məqsədilə Mədəniyyət Nazirliyinin sifarişi əsasında heykəltəraş Tural Rzaquliyev tərəfindən hazırlanması nəzərdə tutulan heykəlin isə keçmiş "Bakı" mehmanxanasının yerində salınmış parkda ucaldılması planlaşdırılır.

# "Azercell" bir daha qanvermə aksiyası keçirdi Ⓡ

**Şirkət əməkdaşları talassemiya və hemofiliya, eləcə də leykoz xəstəliyindən əziyyət çəkən uşaqlara dəstək oldu.**

İyulun 27-də "Azercell Telekom"-un baş ofisində Azərbaycan Talassemiya Federasiyası İctimai Birliyinin təşkilatçılığı ilə talassemiya və hemofiliya, eləcə də leykoz xəstəliyindən əziyyət çəkən uşaqlara yardım məqsədilə qanvermə aksiyası təşkil olunub.

Mərkəzi Qan Bankının həkim heyəti tərəfindən həyata keçirilən aksiyaya Azercell şirkətinin çoxsaylı əməkdaşı qatılıb. Peşəkar tibb vasitələrinin tətbiqi ilə icra edilən prosedur zamanı donorların və tibb işçilərinin təhlükəsizliyini təmin etmək üçün bütün zəruri təhlükəsizlik tədbirləri həyata keçirilib. Həkim-hematoloqlar hər bir donoru hərtərəfli tibbi müayinə etdikdən sonra onlardan qan götürüblər. Toplanmış qan ehtiyatı Milli Hemotologiya və Transfuziologiya Mərkəzinin Mərkəzi Qan Bankı şöbəsində qeydiyyata alınmış və qan köçürülməsinə ehtiyac duyan uşaqlara yönəldiləcək.



Aksiyanın məqsədi talassemiya və hemofiliya, eləcə də digər irsi qan xəstəliklərindən əziyyət çəkən uşaqlara yardım etməklə yanaşı, cəmiyyətin diqqətini bu sosial məsələyə cəlb etməkdir. Çünki həm karantin rejiminin tətbiqi, həm də isti yay ayları ilə əlaqədar yaranmış qan çatışmazlığı həyatları qandan asılı olan hematoloji xəstələrə mənfi təsir göstərə bilər.

Qeyd edək ki, həmin aksiya şirkətin ümumən əməkdaşlarının iştirakı ilə həyata keçirilən artıq ikinci bu cür sosial təşəbbüsdür. Hələ ötən il karantin rejiminin tətbiq olunmağa başladığı ilk aylardan Azercell Telekom baş ofisində ilk qanvermə aksiyasını həyata keçirib.

## HƏFTƏ REYTİNQ

### Həftənin TƏYİNATI



Prezident İlham Əliyev Azərbaycanın Türkiyədə fövqəladə və səlahiyyətli səfirinin təyin edilməsi haqqında sərəncam imzalayıb. Sərəncama əsasən, Rəşad Məmmədov Azərbaycanın Türkiyədə fövqəladə və səlahiyyətli səfiri təyin edilib. Qeyd edək ki, R. Məmmədov 2015-2021-ci illərdə Azərbaycanın Qazaxıstanda fövqəladə və səlahiyyətli səfiri olub.

### Həftənin LAYİHƏSİ



Şuşa istiqamətində dəmir yolu xəttinin çəkilməsi ilə bağlı layihələndirmə işləri aparılır. Bunu jurnalistlərə açıqlamasında "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov deyib. C.Qurbanov bildirib ki, layihələndirmə işlərini Türkiyə şirkəti həyata keçirir: "Orada tunellər bir az çoxdur və dağlıq ərazidir. Bilirsiniz ki, Azərbaycan Prezidenti Şuşanı mədəniyyət paytaxtı elan edib, ona görə də ora elektrik qatarının çəkilməsi vacib olacaq. Bununla bağlı tapşırıq verilib, işlər davam edir".

### Həftənin QƏRARI



Fransada işçilər sanitar pasport təqdim etmədikləri təqdirdə işdən azad oluna bilərlər. Bu barədə Fransanın əmək naziri Elizabet Born mətbuata açıqlamasında deyib. O bildirib ki, avqustun 30-dan sanitar pasport bütün işçilər üçün məcburidir. Əmək naziri təsdiqləyib ki, sanitar pasport təqdim etməyən işçi işdən azad oluna bilər. Həssas qrupdan olan insanlarla təmasdakı işçilər üçün peyvənd məcburiyyətinin olduğunu deyən E.Born qeyd edib ki, hədəf vaksinə inamı artırmaq və peyvənd olunmanı asanlaşdırmaqdır.

### Həftənin MƏHKUMU



Bakı Ağır Cinayətlər Məhkəməsində rüşvət almaqda təqsirləndirilən mədəniyyət nazirinin sabiq mu?avini Rafiq Bayramova cəza istənilib. Hakim Əfqan Hacıyevin sədrliyi ilə keçən iclasda prokuror çıxış edərək R.Bayramovun 10 il azadlıqdan məhrum edilməsini təklif edib. Proses avqustun 10-da davam etdiriləcək. Qeyd edək ki, Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən saxlanılan R.Bayramov 1,8 milyon manat rüşvət almaqda ittiham edilir.

### Həftənin EKS-NAZİRİ



Sabiq səhiyyə naziri Oqtay Şirəliyev yeni vəzifəyə təyin olunub. Sabiq nazir hazırda Respublika Diaqnostika Mərkəzində professor, tibb elmləri doktoru kimi öz fəaliyyətini davam etdirir. O, Respublika Diaqnostika Mərkəzinin baş direktoru vəzifəsinə təyin olunub. Direktor vəzifəsini isə Rəşid Vəzirov icra edir. Xatırladaq ki, Oqtay Şirəliyev Prezident İlham Əliyevin sərəncamı ilə 23 aprel 2021-ci ildə Azərbaycanın səhiyyə naziri vəzifəsindən azad edilib.

### Həftənin MƏRHUMU



Azərbaycanın Xalq artisti Səməd Səmədov vəfat edib. Yaxınlarının verdiyi məlumata görə, 74 yaşlı ifaçı müalicə aldığı xəstəxanada koronavirusdan dünyasını dəyişib. Qeyd edək ki, tanınmış estrada müğənnisi Səməd Səmədov 1946-cı il sentyabrın 17-də Aşqabadda anadan olub. 1948-ci ildə zəlzələ nəticəsində ailəsi ilə birlikdə Bakıya, İçərişəhər məhəlləsinə köçüb. 1988-ci ildən toylarda çıxış edən Səməd Səmədov əhali arasında "Toylar Kralı" kimi tanınırdı. 2011-ci ildə "Xalq artisti" fəxri adına layiq görülüb. Qeyd edək ki, bu il S. Səmədovun bacısı ilə baldızı koronavirusdan vəfat edib.

### Həftənin İDMANÇISI



Yaponiya idmançısı Momiji Nişiya Olimpiadada rekorda imza atıb. O, 13 yaş 330 günlüyündə Olimpiya çempionu olub. Nişiya skeytbord yarışlarında fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Qeyd edək ki, bu dünya idmanı tarixində ikinci rekorddur. 1936-cı ildə suyatullanma növündə ABŞ təmsilçisi Marcori Qestrinq 13 yaş 268 günlüyündə qızıl medal qazanıb.

✍ Azad Əliyev

## GÜNÜN FOTOSU



Bakıda "Baksol yolu"nu kanalizasiya suları basdı...

> **"Bərpa işlərinə dəstək vermək istəyirəm"**

**Vasif Kazımov,**
Dobryanka şəhərində Azərbaycan cəmiyyətinin sədri

Cavabdeh qurumlardan da xahişim o olardı ki, abadlaşdırma işlərinə dəstək olmaq istəyənlərə müvafiq şərait yaradılsın.

▸▸ Səh. 6

## STATİSTİKA



■ Hazırda Amerika Birləşmiş Ştatlarında rəsmi olaraq tanınan 500-dən çox hindu qəbiləsi var.

■ Birləşmiş Ştatlarda hər saatda 100-lərlə ailə boşanma qərarı alır.

■ ABŞ-da əhalinin 1 faizini təşkil edən varlıların ümumi sərvəti bütün ölkə əhalisinin sərvətinin 90 faizini təşkil edir.

■ Amerikada hər 7 nəfərdən bir vətəndaşın 10 kredit borcu var.



▸▸ Səh. 7

# Hündürmərtəbəli binalarda yanğınlar